

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 42 (24.477)

1 noyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Zəfər yürüşü:

## *xalqın həmrəyliyi, liderin qətiyyəti, ordunun gücü*




Beş il bundan öncə, 2020-ci ilin sentyabrın 27-də üç əsas amil Azərbaycanı sonu şanlı, tarixi qələbə olan 44 günlük mübarək yola – zəfər yürüşünə çıxartdı. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının, milli həmrəyliyin, milli ruhun təntənəsinə çevrildi həmin gün. 1990-cı ildə Ulu Öndərin ətrafında sıx birləşərək öz taleyinin dönüşünə nail olmağı bacaran xalq 27 sentyabrda öz beynəlxalq hüquqlarını təmin etmək üçün atılmışdı meydana. O günədək də hər birimiz bir Vətən fədaisi, hər birimiz bir müsəlləh əsgər idik, əslində. Kimimiz siyasət, kimimiz iqtisadiyyat, ticarət, kimimiz də texnologiya, informasiya cəbhəsində mətinliklə dayanıb mübarizə, müharibə aparırdıq.

Xalqın birliyinin, milli həmrəyliyin ən güclü, ən təsirli nümayişi məhz xarici ölkələrdə respublikamızın mövqeyini ortaya qoymaq, haqq səsini dolğun şəkildə çatdırmaqdır. Bunun üçün isə, təbii ki, düzgün koordinasiyaya malik, hərtərəfli biliyə, savada malik gənclərdən ibarət diasporun fəaliyyəti əvəzsiz rol oynaya bilərdi. Təsadüfi deyildir ki, Ümummilli Liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq məhz Azərbaycan diasporunun, lobbisinin formalaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü işlər apardı. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi olan Ümummilli Liderimiz xarici ölkələrə çoxsaylı səfərlərində diasporumuzun nümayəndələri ilə görüşlər keçirdi, onların problem və qayğıları ilə yaxından maraqlandı. Bu görüşlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün mənəvi dayaq və güvənc rolunu oynamaqla onların fəaliyyətinə stimul verdi.

Dünya azərbaycanlılarının təşkilatlanması və ümummilli ideyalar ətrafında birləşdirilməsi yolunda həyata keçirilən mühüm tədbirlərdən biri görkəmli dövlət xadiminin "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli Sərəncamına uyğun olaraq həmin ilin 9-10 noyabrında Bakıda təşkil edilən qurultay oldu. Bu qurultay milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvəsi olmaqla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, eyni zamanda diaspor quruculuğunun təkmilləşdirilməsi işinə öz böyük töhfəsini verdi. Ümummilli Lider həmin qurultayda çıxışı zamanı dünya azərbaycanlılarının həmrəyliyini vacib vəzifə kimi önə çəkərək bunun üçün zəruri istiqamətləri diqqətə çatdırdı. Görkəmli dövlət xadiminin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirdi.

Səhifə ➡ 3

# Böyük zəfərə aparan yol

## Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları bugünkü inkişafımızın təməlidir

*Xalqımızın Ümummilli Lideri Heydər Əliyev bütün mənalı həyatı və fəaliyyəti boyu yalnız bir müqəddəs vəzifəyə xidmət etmişdir. Bu onun həyatının amalı olan Azərbaycançılıq ideyaları, Azərbaycan dövlətinə, xalqına xidmət idi. İstər sovet dövrü olsun, istərsə də müstəqillik illəri, fərqi yox idi – dahi şəxsiyyət Heydər Əliyev hər zaman və hər yerdə Azərbaycan üçün çalışır, ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanılmasında görürdü. Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Ulu Öndərin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev epoxası kimi əbədi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu Azərbaycançılıqdır. Dahi şəxsiyyət Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə də şəxsən özü nəzarət edirdi. Ulu Öndərin Azərbaycan cəmiyyətində həmrəylik hisslərinin möhkəmlənməsi, dünya azərbaycanlılarının birliyi yolunda apardığı çoxsahəli fəaliyyət də bizim üçün əvəzsiz bir dərsdir. Onun milli siyasət konsepsiyasında dünya azərbaycanlıları ilə iş prioritet istiqamət, taleyüklü xətt kimi müəyyənləşdirilmişdi. Ümummilli Liderimiz öz çıxışlarında XX əsrdə xalqımızın əldə etdiyi tarixi qələbəni – müstəqilliyimizin qorunub saxlanılmasında xalqın milli şüurunun güclü şəkildə oyanmasını və vətənpərvərlik şüuruna çatdırılmasını dönə-dönə təkrar edirdi: "Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir".*



Azərbaycan xalqının ən mühüm milli-mənəvi dəyərlərindən biri öz doğma yurduna bağlılığıdır. Ölkəmiz təkcə bu ərazidə yaşayan, yaradan və fəaliyyət göstərən azərbaycanlıların deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıların əzəli Vətənidir. Bütün varlığı, ruhu, duyğuları ilə xalqına, Vətəninə bağlı olan, ömrünü milli dövlətçilik ideologiyasının inkişafına və bərqərar olmasına həsr edən, Azərbaycanı qarış-qarış qurub inkişaf etdirən Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin, dövlətçiliyimizin təşəkkülünə, həmçinin milli mənlik və milli kimlik şüurumuzun inkişafına da təkan verdi.

Genişmiqyaslı layihələri, çoxşaxəli fəaliyyəti ilə hər bir azərbaycanlının ruhuna, duyğusuna vətənpərvərlik toxumları səpən Ümummilli Liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik şüuru, dil, mədəniyyət, vicdan azadlığı, iqtisadiyyat, elm konsepsiyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Dahi rəhbərin milli şüur – vətənpərvərlik şüuru elmi konsepsiyası bu gün yeni mahiyyət almış, daha da genişlənərək bütünlükdə xalqımızın vətənpərvərlik tərbiyəsində əvəzsiz örnəyə çevrilmiş, xalqımıza Vətən sevgisi, Vətən birliyi, Vətən bütövlüyü aşılamışdır. Ulu Öndərin fikrincə, Vətən yalnız insanların toplumu olan, sadəcə, coğrafi ərazi deyil, Vətən hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq, şan-şöhrəti, namusu, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, qüdrəti, əbədi səcdəgahıdır. Səməd Vurğunun "Azərbaycan" şeirini söyləyərkən Ulu Öndərin necə kövrəldiyinin hamımız canlı şahidiyik. Bugünkü müasir, müstəqil Azərbaycan Ulu Öndərimiz Heydər Əliyevin bizlərə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır.

Bu gün Azərbaycan Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dünyaya sürətli inteqrasiya yolundadır. Bu inteqrasiya xalqımızın öz tarixi keçmişinə bağlılığı kontekstində baş verir. Sevindirici haldır ki, Ulu Öndərimizin bu sahədə müəyyənləşdirmiş olduğu ənənələr müqəddəs bir miras kimi yaşadılır, qorunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində Azərbaycan bu gün çağdaş tarixinin intibah mərhələsinə qədəm qoymuş, müstəqil dövlətimiz iqtisadi inkişaf potensialına görə lider ölkəyə çevrilmiş, beynəlxalq siyasi münasibətlərdəki mövqeyi möhkəmlənmişdir.

Bu gün hamımız Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin ideyalarının həyatda gerçəkləşdiyinin şahidləriyik. Bu inkişafda dönə-dönə heyrətlə şahidi oluruq ki, Ümummilli Liderimiz xalqı, Vətəni üçün bir insan ömrünə sığmayan böyük işlər görmüşdür. Bunlardan biri də milli ideologiyamızın yaradılmasıdır. Ümumiyyətlə, Ulu Öndər fəaliyyəti boyu nə iş görübsə, orada Azərbaycançılıq ideyasının izləri var. Bu ideyalar müstəqillik illərində daha da inkişaf etmiş, formalaşmış, müstəqil dövlətimizin dayaqlarına çevrilmişdir.

Azərbaycan xalqı bu gün çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları qürur və sevinc hissləri keçirirlər. Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə çağdaş tariximizə şanlı səhifə yazdı. Tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu qələbə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi.

Ölkəmizin sosial-iqtisadi cəhətdən davamlı və dinamik inkişafı, regionda aparıcı dövlətə çevrilməsi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin Vətənimizin tərəqqisi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəldilməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan doğma Qarabağın işğaldan azad olunması istiqamətində möhtəşəm fəaliyyəti hər bir vətəndaşımız, yetişməkdə olan hər bir gəncimiz üçün böyük vətənpərvərlik nümunəsi, vətənpərvərlik məktəbidir. Dövlət başçımızın işğaldan azad olunmuş Qarabağın rayonlarına səfərləri, möhtəşəm Xudafərin körpüsü üzərində, Qarabağ şəhərlərində müqəddəs üçrəngli Azərbaycan Bayrağını öpüb yüksəkliyə qaldırması hər bir azərbaycanlının iftixar etdiyi əsl vətəndaşlıq, əsl vətənpərvərlik örnəyidir.

Bu müharibənin milli dövlətçilik tariximizdəki müstəsna rolu nəzərə alınaraq ölkə Prezidentinin müvafiq sərəncamları ilə müharibənin başlandığı 27 sentyabrın Anım Günü, müharibənin gedişində dönüş nöqtəsi sayılan Şuşanın azad olunduğu 8 noyabrın "Zəfər Günü" kimi təntənəli şəkildə qeyd olunması qərara alındı. Bu tarixi zəfər, eyni zamanda Azərbaycan xalqının, xüsusən Azərbaycan gəncliyinin milli vətənpərvərlik ruhunun yüksək olduğunu, millətimizin Vətən, dövlət, dövlətçilik, milli bayraq sevgisini, dövlət başçısı və xalq birliyini parlaq şəkildə nümayiş etdirdi.

İndi işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri gedir. Ərazilər minalardan təmizlənir, yeni yollar salınır, körpülər, tunellər tikilir, yeni elektrik stansiyaları qurulur, innovativ layihələr həyata keçirilir. Bu gün Azərbaycan ərazi bütövlüyünü təmin etmiş, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparan dövlət olaraq gücünü həm dosta, həm də düşmənə göstərməkdədir. Bir çox dünya ölkələri tərəfindən də maraqla izlənilən bu tədbirlər Azərbaycan dövlətinin iqtisadi gücünü, nüfuzunu göstərir. Çox şükürlər olsun ki, Azərbaycan Prezidentinin müdrik siyasəti, ordumuzun qətiyyəti sayəsində bizim bayrağımız Laçında, Şuşada, Xocalıda, Xankəndidə dalğalanır.

44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı, haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarixboyu şanlı qürur mənbəyimiz olaraq qalacaq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycanın möhtəşəm qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi həm də milli birliyə və həmrəyliyə, milli-mənəvi dəyərlərə və milli özünüdərkə söykənən Heydər Əliyev ideologiyasının alternativinin olmadığını bir daha ortaya qoydu. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz uğurlar məhz Prezident İlham Əliyev siyasətinin təntənəsidir və Ulu Öndərin əbədiyaşar ideyalarından qaynaqlanır.

**Aysel DÜNYAMALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Zəfər yürüşü:

## xalqın həmrəyliyi, liderin qətiyyəti, ordunun gücü

(əvvəli 1-ci səhifədə)

Ulu Öndərin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə diaspor quruculuğu istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində xaricdə Azərbaycanın səsi tam olaraq eşidilməyə başladı. Azərbaycan diasporunun onlarla ölkədə yaradılan Koordinasiya Şuraları, "Həmrəylik məkanı"na çevrilən Azərbaycan Evləri Azərbaycan haqqında müfəssəl informasiyanın verilməsində, təşkilatlanma prosesində mühüm rol oynadı. "Diaspor Gənclərinin Yay Düşərgəsi", "Vətənə qayıdış", "Gələcəyin diplomatı" kimi proqramlar diaspor gənclərinin yetişdirilməsi, onların ictimai-siyasi fəallığının artırılması və qlobal informasiya döyüşlərinə hazırlanmasına imkan verdi. Həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq ABŞ, Fransa, Almaniya və digər ölkələrdə fəaliyyət göstərən azərbaycanlılar artıq təkcə mədəni tədbirlərlə deyil, həm də siyasi platformalarda özlərini göstərdilər. Diasporların fəal gəncləri Qarabağ gündəliyini daim diqqətdə saxladılar, azərbaycanlılara qarşı ermənilərin törətdiyi terror və soyqırımı aktları, "erməni soyqırımı" iddialarının ifşasına xidmət edən "Xocalıya ədalət – Qarabağa azadlıq" və digər şüarlarla apardıqları kampaniyalar həm xaricdə, həm də Azərbaycanda yaşayan soydaşlarımızı milli ruha kökləməklə, əslində, elə Vətən müharibəsinə hazırladı. Azərbaycançılıq ideologiyasından yoğrulan Milli Həmrəyliyin özəlliyi, unikallığı onun coğrafiyadan, yaşadığı yerdən asılı olmayaraq damarında azərbaycanlı qanı axan hər bir soydaşımızı vahid amal ətrafında birləşdirməyidir. Bu baxımdan həm xaricdə, həm də daxildə Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına sadiqliyi, onun layiqli davamçısı Prezident İlham Əliyevə sonsuz inam və etibarı zəfər yürüşünə gedən yolun açarı kimi xarakterizə etmək olar.

Qarabağın azadlığını şərtləndirən, zəfər salnaməsinin yazılmasında mühüm və həlledici amillərdən biri məhz lider qətiyyəti, siyasi iradəsi idi. Əgər dünya hərb tarixinə, müharibələrin gedişatına, nəticələrinə nəzər salsaq görərik ki, münaqişələr, birinci növbədə, siyasi arenada həllini tapıb və daha sonra döyüş meydanında bu proses yekunlaşıb. Başqa sözlə, danışıqlar masası müharibənin ilk raundudur, əsl qələbəyə aparan yol məhz oradan keçir. Əlbəyaxa döyüşdə ilk zərbə vuran qazandığı kimi, müharibədə də ilk raundu qələbə ilə bitirən ümumi nəticədə böyük üstünlük əldə edir. Bu baxımdan, Vətən müharibəsi hələ 2020-ci ilin 27 sentyabr tarixindən çox-çox əvvəl Prezident İlham Əliyevin apardığı məharətli diplomatiya, siyasi iradə sayəsində siyasət meydanında qazanılmışdı. Bəli, Azərbaycan lideri bu illərdə həm ölkə daxilində sosial rifahı yaxşılaşdırdı, ictimai münasibətləri tənzimlədi, ideoloji işi gücləndirdi, vətənpərvər ruhlu gənclər yetişdirdi, həm də xaricdə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, TDT, MDB və digər beynəlxalq platformalardan respublikamızın haqq səsini dünyaya bəyan etdi. Prezident İlham Əliyev təkcə Ermənistan rəhbərliyi ilə deyil, "güclü silahlanmış" erməni lobbisinə, onun havadarlarına qarşı qətiyyətli mübarizə apardı. Aparılan uğurlu xarici siyasət nəticəsində dünyanın Türkiyə, Pakistan, İsrail, İtaliya kimi dövlətləri, eyni zamanda MDB, TDT, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlara üzv ölkələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması prosesinə birmənalı dəstək göstərdilər.



Bəli, artıq 1990-cı ildən fərqli olaraq 2020-ci ildə Ermənistan-Azərbaycan münaqişəsindəki nüfuz, güc, qüvvət böyük mənada respublikamızda idi. Prezident İlham Əliyev həyata keçirdiyi qətiyyətli siyasət nəticəsində artıq dünya birliyinə həqiqəti qəbul etdirmişdi və ölkələr Azərbaycanın həm iqtisadi, həm siyasi, həm də hərbi gücünə yaxşı bələd idi. Dalan vəziyyətində yaşayan, heç bir iqtisadi yüksəlişi olmayan, nəqliyyat imkanları kasad Ermənistandan fərqli olaraq, respublikamız Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP, Cənub Qaz dəhlizi, Trans-Xəzər Nəqliyyat Marşrutu kimi beynəlxalq əhəmiyyətli layihələrlə dünyaya səs saldı, regionun siyasi, iqtisadi mənzərəsini formalaşdırdı. Və dırnaqarası bir-iki qərb yönümlü siyasi dairədən, respublikadan başqa bütün ölkələr Azərbaycanın imkanlarını, gələcək perspektivlərini yüksək dəyərləndirərək onun haqlı mövqeyi ilə razılaşmaq məcburiyyətində qaldılar. Bəli, bəzi ölkələr istəməsələr də buna məcbur oldular. Bu məcburiyyəti yaradan, diqtə edən məhz Prezident İlham Əliyevin məharətli, praqmatik diplomatiyası, çoxvektorlu xarici siyasət doktrinası idi.

Zəfər yürüşünü şərtləndirən, qələbənin qazanılması prosesində əsas qüvvələrdən biri də, təbii ki, güclü, yenilməz ordu modeli idi. Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa tapşırığı, nəzarəti ilə Azərbaycan Ordusu 20 ilə yaxın dövrdə ən müasir silah və texnika ilə təchiz edildi, dünyanın hərbi potensial cəhətdən aparıcı ölkələri ilə kontraktlar imzalandı, təcrübə mübadilələri aparıldı. Respublikamızın milli müdafiə sənayesi xeyli gücləndirildi, yerli istehsallı silahlar ordumuzun arsenalına daxil edildi. Bu xüsusda müdafiə sənayesinin inkişafı, ən yeni texnika və texnologiyalarla təminatla yanaşı, milli kadr potensialının artırılması, döyüş hazırlığının yüksəldilməsi də əsas prioritet məsələ kimi diqqətdə saxlanıldı, milli əzmə malik vətənpərvər ruhlu, yüksək döyüş qabiliyyətinə malik gənclik formalaşdırıldı. Bəli, ordunun özəyi onun şəxsi heyətidir. Müzəffər Liderin də dediyi kimi, nə qədər güclü texnika, texnologiya olsa da, bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. O sinəsini önə verərək döyüşür, o Vətən uğrunda gözünü qırpmadan şəhidlik şərbətini içir.

Bu mənada, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin milli ideologiya, Azərbaycançılıq siyasətinin əsas təntənəsi kimi, 44 gündə özünü ən bariz şəkildə göstərdi. Misilsiz Qələbədə XXI əsrin gənclərinin rolu mühüm, həlledici oldu. Ölkə başçısı da çıxışlarının birində bu məqama xüsusi toxunaraq deyib: ***"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".*** Bəli, vətənpərvər ruhda yetişən qətiyyətli Azərbaycan əsgər və zabiti 44 gün ərzində bir addım belə geri çəkilmədi, ancaq irəli, irəli sədaları ucaldı Vətən torpaqlarında. Düşmənin keçilməz sandığı Füzuli səddini yarıb keçən möhkəm iradəli oğullarımız dağlar aşıb, sıldırım qayalardan dırmanaraq Şuşa qalasına qalxdılar, mənfur düşməni əlbəyaxa döyüşdə məhv edib tarix kitablarından heç zaman silinməyəcək şücaətlik dastanı yazdılar.

Xalqın həmrəyliyi, liderin qətiyyəti və ordunun gücündən güc alan, qüdrətlənən müasir Azərbaycan dövləti, nəhayət ki, 200 illik tarixi ədalətsizliyə 2020-ci ilin sentyabrın 27-dən başlayaraq 44 gün ərzində son qoydu. Beynəlxalq təşkilatların bacarmadığını bacardı, BMT-nin 30 ilə yaxın müddətdə kağız üzərində qalan qətnamələrini icra etdi. Vətən müharibəsi dövründə cəbhədə şücaətlə döyüşən Azərbaycan əsgər-zabiti ilə yanaşı, arxada əzmlə, qətiyyətlə, həmrəyliklə dayanan, hər an hamılıqla cəbhəyə yollanmaq iradəsində olan xalq var idi. Prezident İlham Əliyev həm müharibəni koordinasiya edir, həm də informasiya məkanında gedən müharibədə də əzmlə, dəyanətlə mübarizə apararaq Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırırdı. Qırx dörd gün davam edən müharibə dövründə Prezident 11 ölkənin 26 KİV-nə müsahibələr verdi ki, bu müsahibələrdə beynəlxalq hüququn prinsipləri, tarixi həqiqətlər və siyasi reallıqlar öz əksini tapdı.

Bütün maddi, mənəvi, psixoloji, hərbi təzyiqləri, istehkamları, sədləri Azərbaycan xalqının həmrəyliyi, Liderinin qətiyyəti, ordusunun qüdrəti aşdı keçdi, nəinki Ermənistan, onun havadarları da ağ bayraq qaldırdı, təslim oldu. Çünki qarşılarında "Öldü var, döndü yoxdu", "Ya Qarabağ, ya ölüm", – deyən yenilməz qüvvə – hər zərrəsində bir can olan Azərbaycan var idi. Prezident İlham Əliyevin dediyi kimi: ***"İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı nə qədər təzyiqlər oldu, Ermənistana nə qədər yardımlar göndərildi. Hər gün silahlarla dolu bir neçə yük təyyarəsi göndərilirdi, xarici ölkələrdən muzdlular göndərilirdi. Ermənistanın müttəfiqləri bizi müxtəlif yollarla dayandırmağa çalışırdılar. Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək".***

**Nail ƏSGƏROV**

# Azərbaycanın beynəlxalq diplomatiyada yeni qələbəsi



***Azərbaycan Respublikasının son illərdə beynəlxalq arenada qazandığı uğurlar bir daha sübut edir ki, ölkəmiz dünya siyasətində nüfuzlu, söz sahibi olan dövlətlər sırasına daxil olub. Bu gün Azərbaycan dünyada öz sözünü deyən, suveren siyasət yürüdən, beynəlxalq əməkdaşlığa və sülhə töhfə verən güclü dövlətdir. Bu nailiyyətlərin əsasında isə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam və inkişaf etdirən müdrik lider, Prezident İlham Əliyevin həyata keçirdiyi prinsipial diplomatiya dayanır.***

***Prezident İlham Əliyevin düşünülmüş və milli maraqlara əsaslanan xarici siyasəti, ardıcıl diplomatik strategiyası, həmçinin beynəlxalq tribunalardakı cəsarətli çıxışları nəticəsində Azərbaycan regionda və dünyada aparıcı siyasi oyunçulardan birinə çevrilib. Ölkə Prezidenti yalnız regionda deyil, dünyada sülh, təhlükəsizlik, enerji sabitliyi və əməkdaşlıq kimi önəmli sahələrdə aparıcı aktorlardan biri kimi qəbul olunur. Həmçinin dünya liderləri ilə ikitərəfli görüşlərdə nümayiş etdirdiyi dövlətçilik mövqeyi, diplomatik çevikliyi və aydın strateji baxışı sayəsində Azərbaycan etibarlı tərəfdaş kimi tanınır.***

Təbii ki, Azərbaycanın xarici siyasətində balans prinsipinə əsaslanması dövlətin maraqlarını qorumaqla yanaşı, regionda və beynəlxalq aləmdə sabitliyin təmin olunmasına da töhfə verir. Son dövrlərdə Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı rolu, Qoşulmama Hərəkatına uğurlu sədrliyi, Avropa İttifaqı ilə davamlı dialoqu və eyni zamanda ABŞ, Çin və Rusiya kimi böyük güclərlə konstruktiv münasibətləri ölkənin çoxşaxəli diplomatiyasının göstəricisidir. Azərbaycan həm Qərb, həm də Şərqlə uğurlu əməkdaşlıq quraraq enerji, nəqliyyat, təhlükəsizlik və humanitar sahələrdə mühüm təşəbbüslərlə çıxış edir.

2020-ci il Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqda isə Azərbaycan diplomatik meydanda da öz sözünü deməyi bacardı. Qarabağın işğaldan azad olunması yalnız hərbi Zəfər deyil, eyni zamanda diplomatik uğurdur. Beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan bu Zəfər Azərbaycanın haqlı mövqeyini dünyaya qəbul etdirdi. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan həm siyasi, həm də diplomatik müstəvidə yeni bir dövrə qədəm qoydu. Bu gün Azərbaycan yalnız Cənubi Qafqazda deyil, bütövlükdə, Avrasiya məkanında sabitliyin və inkişafın aparıcı qüvvələrindən birinə çevrilib.

### *Vaşinqton razılaşması və Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələsi*

Hazırda Azərbaycanın dövlət siyasətində prioritet məsələlərdən biri də Zəngəzur dəhlizinin, digər adı ilə desək, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) açılmasıdır. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi ondan ibarətdir ki, ölkənin digər bölgələri ilə Naxçıvan arasında maneəsiz əlaqə təmin olunmalıdır. Bu tələb tarixi reallığa, beynəlxalq hüquq və ədalət prinsiplərinə əsaslanır.

Bu istiqamətdə atılan əsas addımlardan biri də Vaşinqton şəhərində Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp arasında tarixi əhəmiyyətli üçtərəfli görüş oldu. Vaşinqton görüşü, əslində, 30 ilə yaxın davam edən gərginlik və müharibələr dövründən sonra yeni geosiyasi reallığın rəsmiləşdirilməsidir. ABŞ-nin vasitəçi qismində çıxış etməsi isə Cənubi Qafqazın beynəlxalq gündəmdəki çəkisini, şübhəsiz, artırır. Zəngəzur dəhlizi ilə bağlı açıq və qəti mövqenin Vaşinqton sənədinə salınması artıq bu layihənin təkcə regional deyil, beynəlxalq status qazandığını göstərir.

Təbiidir ki, bu razılaşmanın Naxçıvan üçün konkret strateji üstünlükləri danılmaz və çoxşaxəlidir. Zəngəzur dəhlizinin açılması Naxçıvanı ölkənin əsas hissəsi ilə birləşdirərək onu regionun nəqliyyat və logistika qovşağına çevirəcək. İqtisadi baxımdan bu, ixrac və idxal imkanlarını genişləndirmək, xarici sərmayəni cəlb etmək deməkdir. Siyasi baxımdan isə Naxçıvan Azərbaycan dövlətçiliyinin, Qərb və Şərq arasında körpü rolunun canlı nümunəsi olacaq. Bu, Naxçıvanın artıq təkcə regional deyil, həm də qlobal səviyyədə tanınan strateji aktora çevrilməsi deməkdir.

Ermənistanın isə bu razılaşmanı imzalaması onu göstərir ki, artıq onlar da tarixi reallığı qəbul ediblər. İndi gündəmdə qarşılıqlı iqtisadi fayda və sərhəd təhlükəsizliyi məsələləri dayanır. Bu isə regionda uzunmüddətli sülhün əsas şərtidir.

### *Zəngəzur dəhlizinin regional və qlobal əhəmiyyəti, Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin inkişafında rolu*

Zəngəzur dəhlizi Azərbaycan üçün tarixi, iqtisadi və geosiyasi baxımdan strateji əhəmiyyətə malik bir layihədir. O həm Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin təbii kəsişmə nöqtəsini formalaşdıracaq, həm Azərbaycanın tranzit imkanlarını maksimum dərəcədə genişləndirəcək, həm regionda iqtisadi sabitlik və əməkdaşlığı təşviq edəcək, həm də Türk dünyası və Avrasiya məkanında inteqrasiyanın yeni mərhələsinin başlanğıcı olacaq. Bu, XXI əsrdə Azərbaycanın Avrasiya nəqliyyat sistemində mərkəzi qovşaq kimi rolunu möhkəmləndirən və ölkəni regionun iqtisadi güc mərkəzinə çevirən mühüm strateji layihədir. Bu baxımdan, Zəngəzur dəhlizinin yaradılması ideyası yalnız regional deyil, həm də qlobal əhəmiyyət kəsb edən layihə kimi dəyərləndirilir.

Zəngəzur dəhlizi, əslində, Şərq-Qərb nəqliyyat dəhlizinin təbii davamıdır. Bu layihənin reallaşması nəticəsində Bakı-Tbilisi-Qars xəttinə alternativ və daha qısa marşrut yaranacaq, Naxçıvan üzərindən Türkiyəyə birbaşa dəmir yolu əlaqəsi təmin ediləcək, Azərbaycan yük daşımalarında vaxt və xərc baxımından əlavə üstünlüklər qazanacaq və regionda Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) tranzit potensialı əhəmiyyətli dərəcədə artacaq.

Zəngəzur dəhlizinin əhəmiyyəti təkcə Qərb istiqamətində deyil, həm də Şimal-Cənub dəhlizi ilə inteqrasiya nöqtəsi kimi özünü göstərir. Bu dəhliz sayəsində Rusiya və İran istiqamətindən gələn yüklər Zəngəzur xətti vasitəsilə Türkiyəyə və Aralıq dənizi limanlarına qısa zamanda daşına biləcək və Azərbaycan ərazisində "tranzit qovşağı modeli" formalaşacaq.

Həmçinin Zəngəzur dəhlizi geosiyasi və regional təhlükəsizlik baxımından türk dövlətləri arasında fiziki və iqtisadi inteqrasiyanı möhkəmləndirərək Mərkəzi Asiya ölkələrinin Türkiyə və Avropa bazarlarına birbaşa çıxışını təmin edəcək. Azərbaycan Prezidenti İlham Əliyevin ifadə etdiyi kimi: ***"Zəngəzur dəhlizi təkcə Azərbaycanın deyil, bütün regionun inkişafına xidmət edəcək. Bu, iqtisadi inteqrasiyanın, qarşılıqlı əlaqələrin və sülhün təminatıdır".***

### *Zəngəzur dəhlizi və Naxçıvanda sənayenin inkişafı*

Ölkə iqtisadiyyatında yeni perspektivlər, Naxçıvanda yaradılmış olan Şərur Sənaye Məhəlləsi və ölkənin 13-cü sənaye zonası olacaq Naxçıvan Sənaye Parkının yaradılması muxtar respublikanın iqtisadi inkişafında mühüm mərhələdir. Bu layihələr Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə inteqrasiyasını gücləndirəcək, eyni zamanda Zəngəzur dəhlizinin açılması ilə daha da strateji əhəmiyyət qazanacaq. Bunun nəticəsində isə bölgənin ticarət dövriyyəsi və tranzit gəlirlər artacaq ki, bu da ölkə iqtisadiyyatının inkişafına əsaslı təsir edəcək.

Naxçıvanın sənaye potensialının gücləndirilməsi həm də bölgədə yeni iş yerlərinin açılmasına, sahibkarlara güzəştli şəraitin təmin edilməsinə, investisiya imkanlarının ixrac yönümlü məhsul istehsalının artırılmasına, ixrac imkanlarının və investisiya cəlbediciliyinin genişlənməsinə şərait yaradacaq. Zəngəzur dəhlizi ilə muxtar respublikaya daha ucuz xammal gətirilməsi və istehsal olunan məhsulların geniş bazarlara çıxarılması mümkün olacaq.

İllərlə davam edən blokada və təcrid siyasəti artıq tarixə qovuşur. Qarşımızda böyük imkanlar var; İqtisadi inkişaf, sosial rifah, beynəlxalq əməkdaşlıq. Biz bu fürsətləri dəyərləndirmək üçün hazır olmalıyıq. Naxçıvan artıq regionun açarıdır və bu açar Azərbaycanın əlindədir.

### *Naxçıvan iqtisadiyyatında yeni dövr*

Son dövrə nəzər saldıqda, muxtar respublika iqtisadiyyatında əsaslı dəyişikliyi görmüş oluruq. Əlbəttə, 2025-ci ilin yanvar-avqust aylarında ümumi daxili məhsulun (ÜDM) 5 faiz artması region iqtisadiyyatında davamlı inkişaf tendensiyasının göstəricisidir. Bu artım təkcə statistik rəqəm deyil, həm də sosial rifaha keçid mexanizminin formalaşdığını sübut edir.

Sənaye sektorunun inkişaf etdirilməsi nəticəsində sənaye məhsullarının 19,1 faiz artması, xüsusilə emal sənayesinin 76,6 faiz təşkil etməsi isə Naxçıvanın artıq xammal ixrac edən deyil, hazır məhsul istehsal edən iqtisadi model qurduğunu sübut edir. Enerji təminatının güclənməsi, mədənçıxarma və ekoloji balanslı siyasət isə iqtisadi sabitliyi möhkəmləndirən digər amillərdir.

Bu artım yalnız daxili bazarı idxaldan qismən azad etmir, həm də ixrac potensialını artırır. Əhalinin bank əmanətlərində bir ildə 54,4 faiz artım qeydə alınması isə muxtar respublikada maliyyə sisteminə güclü etimadın formalaşdığını göstərir.

2025-ci ilin ilk səkkiz ayında ixracın 24,5 faiz artması, idxalın isə 11,7 faiz azalması, Naxçıvanın idxaldan asılı iqtisadi modeldən ixracyönümlü iqtisadi modelə keçdiyini göstərir. Ən önəmlisi isə odur ki, ixrac artıq xammal deyil, daha çox emal məhsullarına əsaslanır.

Zəngəzur dəhlizinin açılması Naxçıvanın iqtisadi xəritəsini tamamilə dəyişdirərək Naxçıvanı birbaşa Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək, ixrac potensialı artacaq, sənaye məhsulları daha sərfəli marşrutlarla Avropa və Asiya bazarlarına çıxarılacaq. Logistika, sənaye və xidmət sektorlarında iş imkanlarının genişlənməsi regional inkişafı sürətləndirəcək. Digər tərəfdən, turizm və xidmət sektorunda Naxçıvanın əlçatanlığı artdıqca, bölgəyə turist axını güclənəcək. Otelçilik, iaşə və xidmət sektorunda yeni iş yerləri açılacaq.

Regional üstünlüklərə gəldikdə isə Naxçıvan yalnız Azərbaycan üçün deyil, həm də region üçün mühüm tranzit mərkəzə çevriləcək. Bu mövqe həm iqtisadi, həm də siyasi çəkini artıracaq. Həyata keçirilən bu tədbirlərlə paralel olaraq "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkə iqtisadiyyatı sürətlə inkişaf edəcək, Naxçıvanın iqtisadi dayanıqlılığının daha da güclənməsi və öz daxili resursları hesabına maliyyələşməsi təmin olunacaq.

Bunu ümumi fikirlə ifadə etsək, Naxçıvanın iqtisadiyyatı təcrid modelindən tranzit modelinə keçid edir və bu keçid regionun gələcəyini daha da parlaq göstərəcək.

**Canməmməd CANMƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Böyük Qayıdışın Cəbrayıl və Zəngilan səhifələri




## Horovlu: Qarabağda rahat və xoşbəxt həyatın yeni ünvanı

***Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərin ilk unudulmaz səhifələrindən biri məhz Cəbrayılın işğaldan azad olunmasıdır. Qarabağın nəqliyyat-logistika baxımından mühüm strateji ərazilərindən sayılan bu dilbər guşəmizin ordumuzun nəzarəti altına keçməsindən sonra əsgər və zabitlərimizdə böyük qələbəyə inam hissi daha da çoxaldı. Cəbrayıl tarixi zəfərdən sonra Azərbaycan dövlətinin həyata keçirdiyi Böyük Qayıdış siyasətində də prioritet təşkil edir, rayonun Baş planı əsasında yaşayış məntəqələri tam müasir üslubda yenidən tikilir, sakinlər öz doğma yurdlarına geri qayıdırlar. Prezident İlham Əliyevin rayona hər gəlişi bölgənin simasının dəyişilməsi, yeni sosial obyektlərin açılışı, təməlinin qoyulması baxımından olduqca əlamətdar hadisələrlə yadda qalır. Dövlətimizin başçısının oktyabrın 28-də Cəbrayıla növbəti səfəri də bu bölgəmizdə həyatın dirçələcəyi və "Böyük Qayıdış" proqramının Cəbrayıl səhifəsinin daha da zənginləşəcəyinə dair mühüm addımların atılması ilə tarixə düşdü...***

***Oktyabrın 28-də Cəbrayılın uğurlu yenidənqurma və bərpasını göstərən ən mühüm göstəricilər, şübhəsiz ki, ikinci və üçüncü yaşayış komplekslərinin təməlinin qoyulması, o cümlədən də rayonun Horovlu kəndinin birinci mərhələsinin açılışının reallaşdırılmasıdır. Kənddə kompleks infrastruktur quruculuğu yoldan başlayaraq təhsil, səhiyyə, rabitə, kommunal, demək olar ki, sakinlərin rahat yaşayışını təmin edəcək bütün sahələri əhatə edir.***

Bəli, son bir neçə ildə Qarabağda və Şərqi Zəngəzurda istifadəyə verilən 30-a yaxın yaşayış məntəqəsinin timsalında biz eyni yanaşmanın, yəni dövlətin vətəndaşının rifahını, bu günü və gələcəyini düşünərək mütərəqqi addımlar atmasının şahidi oluruq. Azad edilmiş ərazilərdə 12 şəhərin Baş planı hazırlanıb ki, onlardan 8-i artıq müasir şəhərsalma və ekoloji prinsiplərlə tamamlanıb, 90 kənd və qəsəbə planlaşdırılıb. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Son 4 ildə üç beynəlxalq hava limanı, yol və avtomagistral, yeni dəmir yolu infrastrukturu, yaşayış binaları, səhiyyə müəssisələri və təhsil ocaqları inşa olunub.Və artıq göründüyü kimi, bu gün Cəbrayılın Horovlu kəndi də "Böyük Qayıdış" proqramından öz payını alır, sakinlər öz doğma yurdlarına köç edirlər.

Ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev inşa edilib və müasir kommunikasiya şəbəkəsi – su, işıq, qaz, günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib ki, bu da milli-mənəvi dəyərlərimizə qayıdışın rəmzidir. Ümumilikdə, birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə həm Zəfər tariximiz, həm də işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa proseslərindən söhbət açdı: ***"Dövlət sizin üçün bütün şəraiti yaradıb. İndi Horovlu kəndi göz oxşayır. Çox gözəl binalar, məktəb, uşaq bağçası, tibb məntəqəsi və iş yerləri yaradılır. Evlərin sayı 334-dür və burada birinci mərhələdə 1400 insan məskunlaşacaq. Məndə olan məlumata görə, işğala qədər Horovlu kəndində 1500 adam yaşayırdı. İndi, təbii ki, ailələr böyüyüb və horovluluların sayı 2 mindən bir qədər çoxdur. İkinci mərhələdə digər vətəndaşlar üçün də evlər tikiləcək. Ancaq hesab edirəm ki, birinci mərhələdə görülən bu işlər təqdirəlayiqdir. Burada rahat, xoşbəxt həyat sürmək üçün bütün imkanlar var".***

"Böyük Qayıdış" proqramının icrası çərçivəsində həyata keçirilən yenidənqurma və tikinti işlərində əsas götürülən məsələlərdən biri də tariximizin və milli-mənəvi dəyərlərimizin bərpasıdır. Bu xüsusda mövcud məscidlərin bərpası və yenilərinin inşasını qeyd etmək olar. Oktyabrın 28-də Cəbrayıl şəhər məscidinin təməlinin qoyulması bu istiqamətdə həyata keçirilən işlərin tərkib hissəsi olaraq dini dəyərlərimizə qayıdışın əsasında dayanır. Məscid xalqımızın inam, iman, hörmət və ehtiram ünvanıdır. Təəssüf ki, ermənilər otuz il ərzində soydaşlarımızın dini etiqadlarına qarşı da böyük təcavüzkarlıqlar ediblər, digər tarixi incilərimiz kimi, dini ibadət yerlərimizə qarşı da vandalizm hərəkətləri törədilib, Qarabağ ərazisində olan 67 məsciddən 63-ü yerlə-yeksan edilib. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Yeganə 1 məscid, Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidənin Azərbaycana aid olmadığını sübut etməyə çalışsalar da, cəhdlər uğursuz olub. İşğaldan əvvəl Cəbrayıl rayonunda 5 məscid, 40-dan çox ziyarətgah, 20-dən artıq tarixi-memarlıq abidəsi olub. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi Zəngəzurun tarixi-dini və mədəni abidələrinin bərpası, yenilərinin inşası istiqamətində Azərbaycan dövləti tərəfindən mühüm işlər görülüb. Bu xüsusda 2017-ci ildə Cocuq Mərcanlı kəndində inşa edilən, Şuşa məscidinin bənzəri olan məscidi qeyd etmək olar.

Böyük Qayıdışa dair Dövlət Proqramının icrası çərçivəsində Prezident İlham Əliyevin Qarabağın və Şərq Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi ilə bağlı qarşıya qoyulan vəzifələr də prioritet istiqamətlərdəndir. Ötən bir neçə ildə bu sahədə həyata keçirilən layihələrdə xarici sərmayədarların iştirakı və yatırımlar etməsi olduqca təqdirəlayiq haldır. Bu işlərin davamı kimi, 2025-ci ilin aprelində Azərbaycan Respublikası Hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş Elektrik Stansiyası, "Clean Energy Jabrayil" MMC ilə isə "Şəms" Günəş Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb. Oktyabrın 28-də Prezident İlham Əliyevin iştirakı ilə hər iki günəş elektrik stansiyasının təməli qoyulub. "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarında ildə, ümumilikdə, 206 milyon kilovat-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bunun nəticəsində hər il, təxminən, 44 milyon kubmetr təbii qaza qənaət ediləcəyi, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir. Sadalanan faktlara əsaslanaraq əminliklə demək olar ki, bu layihə ölkəmizin "yaşıl enerji" strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsində yeni mərhələnin başlanğıcını qoyacaq. 2027-ci ildə istismara verilməsi nəzərdə tutulan stansiyalar Şərqi Zəngəzurun "yaşıl enerji" mərkəzinə çevrilməsində Cəbrayıl rayonunun rolunu daha da artıracaq. Və sözsüz ki, bu layihələr, ümumilikdə, Azərbaycanın "yaşıl gündəliyi"nin və 2030-cu ilədək Milli Prioritetlərinin icrası baxımından mühüm əhəmiyyət kəsb edəcək.

## Ağalı böyüyür, inkişaf edir, Məmmədbəyli dirçəlir, yenidən qurulur

Azərbaycan dövlətinin həyata keçirdiyi Böyük Qayıdış siyasətində ərazi yerləşməsi, geostrateji baxımından Zəngilanın rolu da olduqca mühümdür. Gələcəkdə açılacaq Zəngəzur dəhlizinin bir parçasına çevriləcək bu qədim yurdumuz ötən dövrdə kompleks quruculuqdan geniş pay sahibi olub. Zəngilanda müasir kommunikasiyalar yaradılıb, yol infrastrukturu qurulub, beynəlxalq hava limanı tikilib istifadəyə verilib. Rayonun Ağalı kəndi Böyük Qayıdışın ilk ünvanı kimi, işğaldan azad olunan digər yaşayış məntəqələrimizin inşasında nümunə rolunu oynayıb. "Ağıllı kənd" layihəsi əsasında qurulan Ağalıda bu gün sakinlərin rahat, firavan yaşayışına xidmət edən müasir şərait yaradılıb. Ötən 3 ilə yaxın dövrdə burada həyat illər öncəki axarına dönüb, həyətlər, bağçalar cənnətə çevrilib, insanlar əkib-biçir, qurub-yaradırlar.

Bu gün Zəngilan rayonunda Ağalı kəndi artıq ikinci büsatına qovuşur, yaşayış məntəqəsində ikinci mərhələdə 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü üçmərtəbəli 2 bloklu "Townhouse" tipli binalardakı mənzillərdən ibarət olmaqla, ümumilikdə, 103 ev istifadəyə verilir. 103 ev özlüyündə kiçik göstərici deyil, 103 ailənin geri qayıdışı, 103 ailənin firavan yaşayışı deməkdir.

Ağalı ilə yanaşı qeyd etdiyimiz kimi, Məmmədbəyli də dirçəldilir, yeni görkəminə qovuşur. Kənddə 188 fərdi ev inşa edilib ki, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir ev üçün həyətyanı ərazi nəzərə alınaraq hasarlanıb. Evlərdə günəş panelləri quraşdırılıb, onlar su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb, çoxfunksiyalı 2 qeyri-yaşayış binası da inşa olunub. Bütün bu infrastrukturlar sakinlərin sosial-rifahına, həyat, istirahət və iş şəraitinin yüksək səviyyədə təşkilinə xidmət etməklə yanaşı, güclü nəqliyyat logistika potensialına malik bölgənin gələcək inkişafı üçün də hesablanıb. Prezident İlham Əliyev oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşündə də bölgənin parlaq gələcəyi olacağını vurğuladı: ***"Konqres Mərkəzi, Zəngilan Beynəlxalq Hava Limanı. Yəni bura, bu bölgə çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcək. Həm Zəngəzur dəhlizi, həm Araz dəhlizi buradan keçəcək. Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq – qurduğumuz şəhərlər və kəndlər bunu göstərir".***



Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura hər səfəri bu bölgələrə yeniliyin, yeni həyatın, yeni nəfəsin, yeni ruhun qayıdışı ilə əlamətdar, tarixi hadisə kimi yadda qalır. Bəli, Azərbaycan dövləti, xalqı 5 il bundan öncə qazandığı tarixi zəfər kimi, 5 ildir ki, öz doğma torpaqlarına tarixi qayıdışı da uğurla həyata keçirir, Cəbrayılın, Füzulinin, Zəngilanın, bir sözlə, işğaldan azad olunan bütün torpaqların timsalında qazanılan nailiyyət, müvəffəqiyyət göz qabağındadır. ***"Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur"*** – sitatın sonu!

**"Şərq qapısı"**

# Naxçıvanda "Cahan Şirkətlər Qrupu"nun 30 illiyi qeyd edilib




Naxçıvanda "Cahan Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaranmasının 30-cu ildönümü qeyd edilib.

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, bir sıra ölkə və xarici şirkətlərin rəhbərləri, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə tanınmış teleaparıcı Nərgiz Cəlilova qonaqları salamlayıb, "Cahan Şirkətlər Qrupu"nun keçdiyi inkişaf yolundan bəhs edib.

"Cahan Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov tədbirdə iştirak edən hər kəsə təşəkkür edərək bildirib ki, rəhbərlik etdiyi qurum ötən 30 ildə şərəfli yol keçərək böyüyüb, inkişaf edib, Naxçıvan iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilib. Şirkətin çoxsaylı tərəfdaşları arasında həm yerli, həm də beynəlxalq səviyyədə tanınmış şirkətlər var. "Cahan Şirkətlər Qrupu" MMC fəaliyyətini "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun şəkildə davam etdirir. Məqsəd çoxsaylı xarici tərəfdaşlarla birgə layihələr həyata keçirərək milli iqtisadiyyatımıza daha çox investisiyaların cəlb edilməsidir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ötən 30 ili iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir şirkət üçün olduqca uğurlu və təntənəli keçmiş kimi dəyərləndirib. Qeyd edib ki, son bir neçə ildir, Naxçıvanda iqtisadiyyat və sahibkarlıq mühiti yeni tələblər, tam şəffaflıq üzərinə qurulub. Optimallaşdırma və eyni zamanda ixracyönümlü, rəqabətədavamlı bazara hazırlaşmaq ən mühüm tələblərdəndir. Sevindirici haldır ki, "Cahan Şirkətlər Qrupu"nun həm rəhbərliyi, həm də bütün əməkdaşları bu sınaqdan uğurla çıxa bildilər, Naxçıvan Muxtar Respublikasının iqtisadi göstəricilərinin inkişaf etməsində və yaxşılaşmasında fəal rol oynadılar. Səlahiyyətli nümayəndə "Cahan Şirkətlər Qrupu"nun çoxsaylı kollektivinə uğurların davamını, yeni çağırışlarda birgə addımlamağı arzulayıb, yubiley münasibətilə təbriklərini çatdırıb.





Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd edib ki, Azərbaycanda özəl sektorun payı 80 faizi ötüb. Bu da onu göstərir ki, ölkəmizdə əlverişli və şəffaf biznes mühiti formalaşıb. Azərbaycan sürətlə inkişaf edir və burada sahibkarların böyük rolu var. "Cahan Şirkətlər Qrupu" bu göstəricidə böyük pay sahibidir. Çünki "Cahan" Naxçıvandan dünya bazarlarına çıxan ölkənin aparıcı holdinqlərindən biridir. Bu, Azərbaycanın daha bir fəxri və uğurudur.

Məmməd Musayev Azərbaycan Sahibkarlar Konfederasiyasının "Cahan Şirkətlər Qrupu"na ünvanladığı təbriknaməni holdinqin təsisçisi Vüqar Abbasova təqdim edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi idarə heyətinin sədri Orxan Məmmədov təbriklərini çatdıraraq bildirib ki, "Cahan Şirkətlər Qrupu" nəinki Naxçıvan, bütövlükdə Azərbaycanda sahibkarlıq ekosistemində mühüm yeri olan, bir çox sosial layihələrdə təmsil olunan şirkətdir. KOBİA bundan sonra da holdinqin fəaliyyətinə dəstəyini əsirgəməyəcək.




Sonra "Cahan Şirkətlər Qrupu"nun 30 illik yubileyinə həsr olunmuş film nümayiş etdirilib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov, Türk Ticarət və Sənaye Palataları Birliyinin baş katibi Adem Kula, İtaliyanın "İMA" şirkətinin satış meneceri Matteo Biançini, Çin Xalq Respublikasının "Lifan Auto" şirkətinin biznesin inkişafı üzrə meneceri Çan Kai çıxış edərək təbriklərini çatdırıb, "Cahan Şirkətlər Qrupu" MMC-nin təsisçisi Vüqar Abbasova hədiyyələr təqdim ediblər.

Həmçinin "Caspian Energy Club"un prezidenti Telman Əliyev "Cahan Şirkətlər Qrupu" MMC-nin təsisçisi Vüqar Abbasova fəxri mükafat təqdim edib.

Şirkətin fəaliyyətində və inkişafında fərqlənən əməkdaşlar müxtəlif nominasiyalar üzrə təltif ediliblər.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Filarmoniyasının Kamera orkestrinin, Xalq artistləri Nəzakət Teymurova, Zülfiyyə Xanbabayeva və tanınmış estrada ifaçısı Zamiq Hüseynovun ifaları yubiley tədbirinə xüsusi rəng qatıb.

Sonda "Cahan Şirkətlər Qrupu"na həsr olunmuş klip izlənilib.

# Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı qeyd olunub



Oktyabrın 29-da Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən Türkiyə Cümhuriyyətinin yaradılmasının 102-ci ildönümü münasibətilə tədbir təşkil edilib.

"Naxçıvan Saray"da keçirilən tədbirdə Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə cümhuriyyət tarixinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya Prezident Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyət Günü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə ünvanladığı təbrik məktubunu oxuyub.

Azərbaycan-Türkiyə münasibətlərinin ölkə başçılarının müəyyən etdiyi hədəflər işığında hər sahədə sürətlə genişlənməsini və inkişafını böyük məmnuniyyətlə vurğulayan Baş konsul son dövrlərdə birgə fəaliyyət əsasında Naxçıvanda reallaşdırılan layihələrdən söz açıb. Bildirib ki, "Ziraat bank"ın Naxçıvan filialının fəaliyyətə başlaması, muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malik olan İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi kimi bir sıra layihələrin icrası qardaşlıq və dostluq əlaqələrimizin davamı kimi məmnunluq doğurur. Həmçinin Türkiyə Respublikası Energetika və Təbii Sərvətlər Nazirliyi Mədən tədqiqi və axtarış baş idarəsi tərəfindən Naxçıvanın zəngin yeraltı sərvətlərinin öyrənilməsi istiqamətində aparılan işlər yekunlaşmaq üzrədir. Dünyanın bir sıra ölkəsində uğurla fəaliyyət göstərən Türkiyə Maarif Fondu tərəfindən Naxçıvanda yeni məktəb binasının inşası da planlaşdırılan layihələr sırasındadır.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qardaş Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə tədbir iştirakçılarını və bütün Türkiyə xalqını təbrik edib, sülh, firavanlıq və tərəqqi arzulayıb.

Samir Seyidəhmədli vurğulayıb ki, Azərbaycan və Türkiyə xalqları tarixboyu hər zaman bir-birinin yanında olub, sevincləri də, çətinlikləri də birlikdə yaşayıb. Bu qardaşlıq və dəstək yalnız sözlərlə deyil, real hadisələrdə də özünü göstərir.




Səlahiyyətli nümayəndənin müavini qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan-Türkiyə münasibətlərində xüsusi yer tutur. Azərbaycanla Türkiyə arasında enerji, infrastruktur, təhsil və mədəniyyət sahələrində həyata keçirilən birgə layihələrdə Naxçıvan xüsusi rol oynayır və həm regionun, həm də ölkəmizin inkişafına töhfə verir. Hazırda Azərbaycan və Türkiyə arasında birliyi, iqtisadi əməkdaşlığı və strateji tərəfdaşlığı daha da möhkəmləndirəcək bir çox layihələr icra edilir. Bu layihələrdən biri də Zəngəzur dəhlizidir. Bu dəhliz təkcə regionun nəqliyyat və logistika xəritəsini dəyişməyəcək, həm də Türk dünyasını birləşdirən yeni strateji yol olacaq. Eyni zamanda İğdır-Naxçıvan qaz kəmərinin reallaşdırılması enerji sahəsində ölkələrimizin strateji əməkdaşlığını daha da möhkəmləndirir. Qars-Naxçıvan dəmir yolunun tikintisinin başlanılması isə tarixi bir hadisədir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan və Türkiyə arasında dostluq körpülərinin möhkəmlənməsində, o cümlədən regionun inkişafında, Türk dünyasının birliyi və gələcək nəsillər üçün dayanıqlı təhlükəsizliyin daha da inkişaf etdirilməsində Naxçıvan Muxtar Respublikası strateji əhəmiyyət daşıyır.



Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin tələbələri, eləcə də Naxçıvanda təhsil alan türkiyəli tələbələrin birgə hazırladıqları musiqili proqram bayram tədbirinə xüsusi rəng qatıb.

Qeyd edək ki, tədbirdə rəsmi şəxslər, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak edib.

# Ölkəmizdə ilk dəfə Naxçıvanda

## Gələcəyin Peşələri Sammiti keçirilib

Oktyabrın 30-da Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Naxçıvanda Gələcəyin Peşələri Sammiti keçirilib.

"Gələcəyə tərəf" devizi altında keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, özəl sektorun nümayəndələri, yerli və xarici karyera məsləhətçiləri, insan resursları üzrə mütəxəssislər, təhsil ekspertləri, inkişaf mentorları iştirak ediblər. Məqsəd əmək bazarında yeni peşə və bacarıqlarla bağlı tələbləri, texnologiya və innovasiyaların iş dünyasına təsirlərini peşəkar mühitdə müzakirə etmək, təhsil və məşğulluq sahələrində yeni çağırışlar nəzərə alınmaqla bu ekosistem iştirakçılarının gələcək əmək bazarına hazırlığını dəstəkləməkdir.

Sammitdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf siyasətinin mərkəzində məhz insan amili, onun bilik və bacarıqları dayanır. Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qeyd olunduğu kimi, gələcəyin iqtisadiyyatı biliklərə, bacarıqlara və texnologiyalara əsaslanmalıdır.

ardı 7-ci səhifədə



Gələcəyin peşələrinin artıq bu gündən formalaşdığını, bu baxımdan, muxtar respublikada təhsil, biznes və dövlət sektorunun sıx əməkdaşlığı sayəsində yeni istiqamətlər üzrə hazırlıq və təcrübə proqramlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdıran Samir Seyidəhmədli qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə mühüm addımlar atılır. Rəqəmsallaşma artıq seçim deyil, zərurətdir. Muxtar respublikada elektron xidmətlərin genişləndirilməsi, "ağıllı idarəetmə" sistemlərinin tətbiqi, rəqəmsal iqtisadiyyatın formalaşdırılması, təhsil və məşğulluq əlaqələrinin gücləndirilməsi, gənclərin innovativ layihələrə cəlb olunması, ixtisaslı kadr hazırlığı və digər sahələr üzrə bacarıqların inkişaf etdirilməsi ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" da məhz bu məqsədlə – dayanıqlı, innovativ və inklüziv inkişaf modelini reallaşdırmaq üçün hazırlanıb. Bu proqram muxtar respublikanın iqtisadi, sosial və ekoloji sisteminin müasirləşdirilməsini, yeni iqtisadi istiqamətlərin formalaşdırılmasını, ən əsası, insan kapitalının gücləndirilməsini hədəfləyir.

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli belə bir sammitin təşkilinin ölkəmizin məşğulluq siyasətində yeni düşüncə mərhələsinin göstəricisi, insan kapitalına, eləcə də bilik və bacarıqların gələcək nəsillərə ötürülməsinə yönəlmiş strateji baxışın ifadəsi olduğunu qeyd edib.



Nazir müavini bildirib ki, Naxçıvan Muxtar Respublikasında da hazırda yenilənən iqtisadiyyatın, innovativ yanaşmaların və gənclərin potensialının üzə çıxarılması sahəsində mühüm və ardıcıl işlər aparılır. Bu sammitin nəticələri gələcəyin peşə ekosisteminin formalaşmasına dəyərli töhfə verəcək. Çünki burada dövlət, özəl sektor və təhsil müəssisələri gələcəyin peşə xəritəsini formalaşdırmaq üçün birgə səylər göstərəcək. Biz birlikdə gələcəyin əmək bazarını daha inklüziv, rəqabətədavamlı və insan mərkəzli edə bilərik.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, süni intellekt 4-cü sənaye inqilabının ən yeni çağırışıdır. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi bu çağırışlara cavab verməklə gələcəyin ixtisaslı kadr potensialını gücləndirməyə xidmət edir. Gələcəyin peşələri ilə bağlı mühüm proqnozları diqqətə çatdıran rektor vurğulayıb ki, elm və təhsil müəssisələri yeni tələbləri əsas fəaliyyət istiqaməti kimi götürərək yeni düşüncə, analitik təhlil imkanlarına və innovativ yeniliklərə hazır olan kadr potensialının formalaşmasında əsas baza rolunu oynayır. Naxçıvan Dövlət Universitetində də bu yöndə islahatlar aparılır. Ali təhsil ocağında İnnovasiya Mərkəzi istifadəyə verilib. Hazırda inşası davam etdirilən Texnoparkda digər yeniliklərlə yanaşı, nanotexnologiya laboratoriyasının da yaradılması nəzərdə tutulur.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Naxçıvan Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri Vüqar Abbasov tədbirdə çıxış edərək bildirib ki, gələcəyin peşələri özəl



sektor üçün, sadəcə, insan resursu deyil. Onlar şirkətlərin innovasiyaya yönəlmiş strategiyasının mərkəzində dayanır. Bu peşələr şirkətlərin inkişafını sürətləndirir, yeni iş yerləri yaradır, rəqabət və istehsal gücünü artırır. Buna görə də həm təhsil sistemi, həm də dövlət və biznes strukturları yeni dövrün tələblərinə uyğunlaşdırılmalıdır. Gələcəyin peşələri özəl sektoru gücləndirəcək, güclü özəl sektor isə ölkəmizin beynəlxalq səviyyədə mövqeyini daha da yüksəldəcək.

Tədbir "Əmək bazarının transformasiyası" və "Dəyişikliklərə adaptasiya" adlı iki panel müzakirəsi ilə davam edib.

Qeyd edək ki, növbəti Gələcəyin Peşələri Sammitinin noyabrın sonlarında Bakı şəhərində keçirilməsi nəzərdə tutulur.

## Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin layihəsinin müzakirəsi ilə bağlı müşavirə olub

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasının 2026-cı il dövlət büdcəsinin layihəsi ilə bağlı müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, regional və beynəlxalq müstəvidə uğurlu addımları yeni reallıqlar yaratmış və bu reallıqlar növbəti dövrlərdə Azərbaycanın yeni inkişaf mərhələsindəki strateji baxışını şərtləndirmişdir. Naxçıvan Muxtar Respublikası da ölkəmizdə müəyyənləşdirilmiş ümumi inkişaf konsepsiyasından kənarda qalmır. Bu çərçivədə dövlət büdcəsi hökumətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində əsas idarəetmə alətidir və büdcənin hazırlanması prosesində səmərəlilik və prioritetlərin düzgün müəyyən edilməsi əsas prinsip kimi qəbul edilmədir. Eyni zamanda büdcənin gəlir mənbələrinin diversifikasiyası, yerli resursların daha səmərəli istifadəsi və fiskal sabitliyin qorunması vacib amildir.

Ceyhun Cəlilov qeyd edib ki, 2026-cı il büdcə layihəsi hazırlanarkən əsas məqsəd iqtisadi artımı stimullaşdırmaq, sosial rifahı yüksəltmək və infrastrukturun müasirləşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsidir. O vurğulayıb ki, qarşıdakı il üçün büdcə siyasəti Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın hədəf və prioritetlərinə tam uyğun şəkildə formalaşdırılmalıdır.

Ceyhun Cəlilov bildirib ki, 2026-cı ilin büdcəsində sosial istiqamətlərin gücləndirilməsi ön planda olacaq. Xüsusilə təhsil, səhiyyə, mədəniyyət, kənd təsərrüfatı və sosial müdafiə sahələri əsas prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Bu sahələrdə infrastrukturun təkmilləşdirilməsi, xidmətlərin keyfiyyətinin artırılması və əhali rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur.

Müşavirə zamanı Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov və iqtisadiyyat naziri Kazım Hüseynəliyev çıxış edərək büdcə layihəsində planlaşdırılan gəlir və xərclər, əsas investisiya istiqamətləri, iqtisadi sektorlar üzrə prioritetlər barədə geniş məlumat veriblər.

Müzakirələr zamanı bir sıra təkliflər səsləndirilib. Həmçinin muxtar respublikanın sosial-iqtisadi inkişafını sürətləndirəcək layihələrin həyata keçirilməsi üçün dövlət və özəl sektor əməkdaşlığının gücləndirilməsinin vacibliyi vurğulanıb.

Müşavirənin yekununda Naxçıvan Muxtar Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edilməsi barədə qərar qəbul edilib.

## Naxçıvanda Zəfər Gününə həsr olunmuş beynəlxalq reytinqli şahmat turnirinin açılış mərasimi keçirilib





Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Naxçıvan Şahmat Mərkəzində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş beynəlxalq reytinqli şahmat turnirinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxış edərək bildiriblər ki, Zəfər Gününə həsr olunmuş bu turnir həm Vətən müharibəsində qazanılan tarixi Qələbənin rəmzi, həm də gənclərin intellektual inkişafına dəstək məqsədi daşıyır.

Vurğulanıb ki, ölkəmizdə sağlam gəncliyin formalaşmasına, kütləvi bədən tərbiyəsinin və xüsusilə də analitik düşüncə tərzi aşılayan şahmatın inkişafına dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsində də muxtar respublikada da mütəmadi olaraq müxtəlif səviyyəli turnirlər keçirilir və gənc şahmatçılar həm yerli, həm də respublika yarışlarında uğurla çıxış edirlər.



Qeyd olunub ki, 8 Noyabr – Zəfər Gününə həsr olunmuş beynəlxalq reytinqli turnir də istedadlı şagirdlərin üzə çıxarılmasına və onların potensialının inkişafına xidmət edəcəkdir.

Tədbirin bədii hissəsində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri mahnı və rəqs nümunələri ilə çıxış ediblər.

Yarışın baş hakimi Tural Zeynalov iştirakçılara yarışın qaydaları barədə məlumat verdikdən sonra turnirə start verilib.

Qeyd edək ki, turnirdə 87 şahmatçı iştirak edir: onların 51-i reytinqli, 36-sı reytinqsiz, 11-i qadın, 24-ü kişi iştirakçıdır. Yaş qrupları üzrə 6-16 yaş arasında 62 gənc şahmatçı, həmçinin 2 Türkiyə vətəndaşı və 5 veteran mübarizə aparır. Yarış "İsveçrə" sistemi üzrə 9 turdan ibarət olacaq və 5 noyabra kimi davam edəcək.

## Cari ilin 9 ayında Naxçıvan büdcəsinin gəlirlərinin 63,1 faizi yerli yığımlar hesabına formalaşıb

2022-ci ildə Naxçıvan Muxtar Respublikasının büdcəsində dotasiyanın ümumi həcmi 425,0 milyon manat idisə, 2023-cü ildə bu həcm 315,0 milyon manat, 2024-cü ildə isə 185,2 milyon manat səviyyəsində olub. Ümumilikdə, 2022-2024-cü illər ərzində Naxçıvan Muxtar Respublikasının büdcəsində dotasiyanın həcmi 239,9 milyon manat və ya 56,4 faiz azalıb. Bu dinamika, sadəcə, riyazi-statistik göstərici deyil, həm də regionun fiskal müstəqilliyinin artdığını, iqtisadi potensialının genişləndiyini və yerli gəlirlərin büdcə sistemindəki rolunun əhəmiyyətli dərəcədə gücləndiyini nümayiş etdirir. Bu barədə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyindən məlumat verilib.

Məlumatda qeyd olunur ki, dotasiyanın azalması ilə paralel olaraq yerli maliyyə mənbələrinin səfərbərliyi, vergi inzibatçılığının təkmilləşdirilməsi və maliyyə idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər öz real nəticələrini göstərməkdədir. Nəticə etibarilə, 2022-2024-cü illər üzrə müşahidə edilən bu tendensiya Naxçıvan Muxtar Respublikasında büdcə sisteminin daha dayanıqlı, balanslı və institusional baxımdan müstəqil əsaslar üzərində formalaşacağına dair güclü iqtisadi və idarəetmə əsasları yaradır.

"2025-ci ilin ilk doqquz ayı üzrə göstəricilər Naxçıvan Muxtar Respublikasının maliyyə müstəqilliyinin güclənməsi baxımından xüsusilə diqqətəlayiqdir. Qeyd edilən dövrdə muxtar respublika büdcəsinin gəlirləri 325 milyon 559 min 140 manat həcmində olub ki, bunun da 205 milyon 559 min 140 manatı və ya 63,1 faizi yerli yığımlar hesabına formalaşıb. Dotasiyanın həcmi isə 120 milyon manat və ya 36,9 faiz təşkil edib ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə (170 milyon 150 min manat) 50 milyon 150 min manat və ya 29,5 faiz azalma deməkdir. Bu azalma tendensiyası, muxtar respublikanın büdcə gəlirlərinin tədricən daxili maliyyə mənbələri hesabına formalaşmağa başladığını göstərir. Yerli gəlir bazasının genişlənməsi, vergi və qeyri-vergi daxilolmalarının artması, eləcə də fiskal intizamın güclənməsi Naxçıvanın büdcəsinin getdikcə daha çox öz resursları hesabına təmin olunmasına imkan verir", – deyə Maliyyə Nazirliyindən bildirilib.

# “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova NDU-da tələbə jurnalistlər ilə görüşüb

Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimovanın Naxçıvan Dövlət Universitetində Jurnalistika, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi və Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisaslarında təhsil alan tələbələr ilə görüşü keçirilib. Görüş ali təhsil ocağının Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə baş tutub.







Universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov çıxış edərək Jurnalistika ixtisasında təhsil alan tələbələrin kadr hazırlığı haqqında məlumat verib. Prorektor bildirib ki, NDU-nun jurnalist tələbələri bu gün ölkənin və muxtar respublikanın aparıcı mətbuat orqanlarında fəaliyyət göstərir. Vurğulanıb ki, muxtar respublikanın qocaman mətbu orqan olan “Şərq qapısı” qəzetində də NDU-nun məzunları çalışır və bu gün öz imzası ilə seçilən məzunların ali təhsil ocağında qonaq olaraq iştirakı uğurlu təşəbbüsdür. Həmçinin NDU ilə “Şərq qapısı” qəzeti arasında səmərəli əməkdaşlıq olduğunu qeyd edən Nicat Yaqubov bu görüşün tələbələrin çap mediasına olan marağının stimullaşdırılmasına da dəstək olacağını söyləyib.

Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə ali təhsil ocağında davamlı olaraq tələbələrin nəzəri və praktiki biliklərini artırmaq, onlara öz potensiallarını aşkarlayıb, inkişaf etdirmək məqsədilə belə görüşlərin, təlimlərin keçirildiyini qeyd edib, qonaq jurnalistlər haqqında görüş iştirakçılarına məlumat verib.

“Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova, qəzetin baş redaktor müavini, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müəllimi Məmməd Babayev görüşdən məmnunluq ifadə edib, “Şərq qapısı” qəzetinin tarixi, fəaliyyəti və iş prinsipi haqqında məlumatları diqqətə çatdırıblar. Qonaq jurnalistlər peşə etikası, çap mediasında yazıların üslubu, etibarlı mənbələrdən istifadə, dezinformasiyanın qarşısının alınması, eləcə də oxucu marağının formalaşdırılması kimi mövzularda əsaslı qaydalardan danışıb, öz peşə təcrübələrini tələbələrlə bölüşüb və gələcək həmkarlarına bu sahənin karyera imkanlarından bəhs ediblər.





Tələbə jurnalist və “Şərq qapısı” qəzetinin əməkdaşı Rafiq Təhməzovun moderatorluğu ilə keçirilən görüşdə Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müəllimlərinin fikirləri dinlənilib, iştirakçı tələbələrin və sosial mediadan jurnalistika ilə bağlı ünvanlanan suallar cavablandırılıb.

Sonda xatirə fotosu çəkdirilib.

# Müasir infrastruktura malik yollar Naxçıvanın əsas inkişaf göstəricilərindəndir




Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” Naxçıvanda bütün sahələrdə inkişafın yeni əsaslarını və yol xəritəsini müəyyənləşdirib. Dövlət Proqramında nəzərdə tutulan muxtar respublikanın yüksəlişinin təməl prinsiplərindən biri də yol və nəqliyyat infrastrukturunun müasirləşdirilməsidir. Bu çərçivədə ötən dövrdə muxtar respublikanın şəhər və rayonlarında geniş abadlıq-quruculuq işləri aparılıb, yeni avtomobil yolları salınıb, mövcud yollar əsaslı təmir olunub. Bu sahədə görülən işlər Naxçıvanın müasir, rahat və təhlükəsiz diyara çevrilməsinə xidmət edir. Əlverişli nəqliyyat şəraiti regionun sosial-iqtisadi inkişafını sürətləndirir, yaşayış məntəqələri arasında gediş-gəlişi asanlaşdırır və əhalinin həyatında, fəaliyyətində rahatlıq, harmoniya yaradır.

Dövlət Proqramında nəzərdə tutulan uzunluğu 2,1 kilometr olan Naxçıvan şəhər 6-cı küçə, 9,6 kilometr olan Naxçıvan şəhər Əliabad qəsəbədaxili, 13,9 kilometr olan Babək rayon Əshabi-kəhf ziyarətgahı, 7,8 kilometr olan Culfa şəhərdaxili, 5,85 kilometr olan Babək rayon Gərməçataq kəndinə giriş və kənddaxili avtomobil yolları, 3,5 kilometr olan Culfa rayon Darıdağ Müalicəxanası və 6,3 kilometr olan Şərur rayon Təzəkənd, 5,1 kilometr olan Şahtaxtı gömrük, 2,45 kilometr olan Xok kənddaxili, 5,2 kilometr olan Şərur şəhərdaxili, 6,2 kilometr olan Babək rayon Nəhəcir-Göynük əsas, 8,7 kilometr olan Babək rayon Nəhəcir-Göynük kənddaxili, 1,1 kilometr olan Şərur rayon Yuxarı Yaycı kənddaxili, 3,3 kilometr olan Culfa rayon Gal və Şurud kənddaxili, uzunluqları 6,8 kilometr olan Ordubad rayon Aza kənd və Darkənd kənddaxili avtomobil yollarında əsaslı təmir işləri aparılıb. Bu yollar artıq sakinlərin gündəlik təhlükəsiz və keyfiyyətli şəkildə istifadəsinə xidmət edir.

Naxçıvanda reallaşdırılan yol infrastrukturunun qurulmasında əsas diqqətçəkən nüanslardan biri də kompleks yanaşmadır. Başqa sözlə, təmir-tikinti işləri hər incə detal nəzərə alınaraq əsaslı şəkildə həyata keçirilir. Avtomobil yollarında əvvəlcə torpaq işləri aparılır, yol əsasına torpaq və qum-çınqıl materialı verilərək bərkidilir, yol yatağı genişləndirilir, yol əsası yenidən tikilir, yağış və arx sularını yoldan kənarlaşdırmaq üçün beton kanallar çəkilir və su keçidləri quraşdırılır. Və sonrakı mərhələdə isə avtomobillərin daha rahat hərəkəti üçün yollara keyfiyyətli asfalt örtüyü salınır. Eyni zamanda təhlükəsiz hərəkəti təmin etmək üçün yol kənarlarında müvafiq yol nişanı və işıq əksetdirici siqnal dirəkləri də quraşdırılır. Bütün bu işlərə cavabdeh qurum kimi Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hazırda əsaslı təmiri davam edən yollar vardır. Belə ki, uzunluğu 7,8 kilometr olan Şərur rayon Axaməd kənddaxili, uzunluğu 8,5 kilometr olan Ordubad rayon Kələntərdizə və Qoşadizə kənddaxili, 11,7 kilometr olan Ordubad rayon Anabad və Gənzə kənddaxili avtomobil yollarında işlər icra edilməkdədir. Bu işlərin tərkibinə köhnə yol yatağının qazılaraq kənarlaşdırılması, yeni yol yatağının tikilməsi, su keçidlərinə müxtəlif diametrli boruların quraşdırılması, yol kənarlarına beton kanalların çəkilməsi, asfalt-beton örtüyün döşənməsi və son tamamlama işlərinin aparılması daxildir. İşlərin il sonuna kimi yekunlaşdırılması nəzərdə tutulur.

Ümumilikdə, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq cari ilin 9 ayında 81,65 kilometr nəzərdə tutulan avtomobil yollarından 54,75 kilometri, və ya 67 faizi, əsaslı təmir olunub və əhalinin istifadəsinə verilib. 2025-ci ildə Naxçıvan şəhərinin Babək məhəlləsi, Hacıniyyət kəndi, 6-cı məhəllə, Qaraçuq kəndi, Xətai məhəlləsi, S.Vurğun-N.Naxçıvani, M.H.Şəhriyar-H.Rəhmanov-58-61-ci məhəllə, Culfa rayon Yaycı kənd daxili, Babək rayon Nehrəm qəsəbədaxili, Şərur rayon Muğancıq-Müslüm və Cəlilkənd-Düdəngə, Ordubad, Şahbuz, Babək və Culfa rayonlarının bəzi şəhər və kənddaxili avtomobil yollarında əsaslı təmir işlərinin aparılması nəzərdə tutulub. Görülən işlər Naxçıvan Muxtar Respublikasında yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına, əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə və regionun sosial-iqtisadi inkişafının təmin olunmasına yönəlib.




Son illərdə yaradılan müasir infrastrukturlar Naxçıvanın sosial-iqtisadi inkişafına, sakinlərin xoşbəxt, firavan gələcəyinə hesablanmış mütərəqqi addımlardandır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasına uyğun görülən bütün işlər kimi, həm şəhər, həm də qəsəbə və kəndlərdə çəkilən yeni yollar da sakinlərin rifahına və regionun iqtisadi dayanıqlılığına mühüm töhfələr verir. Əminliklə demək olar ki, keyfiyyət amilinin əsas götürüldüyü bu yenidənqurma, təmir və bərpa işləri gələcəkdə reallaşdırılacaq nəhəng iqtisadi, nəqliyyat layihələrinin daha səmərəli və uğurlu olmasına imkan verəcək.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 13.11.2025, saat $10^{00}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılzadə Seymur Elbəyi oğlu, 070-335-07-05 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 22.11.2025, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 21.11.2025, saat $15^{30}$, Şərur rayonu, Qaraburc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 14.11.2025, saat $17^{00}$, Şərur rayonu, Qarxun Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 18.11.2025, saat $11^{00}$, Şərur rayonu, Xələc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 05.11.2025, saat $15^{00}$, Şərur rayonu, Ərəbyengicə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 20.11.2025, saat $10^{30}$, Şərur rayonu, Kosacan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 14.11.2025, saat $15^{00}$, Şərur rayonu, Düdəngə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 14.11.2025, saat $15^{00}$, Şərur rayonu, Məmmədsabir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 05.11.2025, saat $15^{00}$, Şərur rayonu, Şəhriyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 28.11.2025, saat $15^{00}$, Şərur rayonu, Aşağı Yaycı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 12.11.2025, saat $15^{00}$, Şərur rayonu, İbadulla Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>19.11.2025, saat $15^{00}$, Şərur rayonu, Qışlaqabbas Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 14.11.2025, saat $15^{00}$, Şərur rayonu, Tənənəm Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 20.11.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qabıllı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidov Miramil Mirabbas oğlu, 050-865-90-90 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 26.11.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 24.11.2025, saat $14^{00}$, Kəngərli rayonu, Təzəkənd və Xıncab kənd sakinləri, Xıncab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 21.11.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 14.11.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 20.11.2025, saat $10^{00}$, Babək rayonu, Şəkərabad kəndi səyyar qəbul | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 19.11.2025, saat $11^{00}$, Babək rayonu, Zeynəddin kəndi səyyar qəbul | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 26.11.2025, saat $15^{00}$, Babək rayonu, Sirab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 07.11.2025, saat $11^{00}$, Babək rayonu, Payız kənd tam orta məktəbin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 28.11.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri Qəsəbə Ailə Sağlamlıq Mərkəzinin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyin qızı, 051-533-71-71 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 25.11.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Tumbul Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 28.11.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 24.11.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 6 saylı Mənzil İstismar İdarəsi | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-485-25-85 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 20.11.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəbin binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 21.11.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 26.11.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 7 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 26.11.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 28.11.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 04.11.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 4-cü küçə səyyar qəbul<br>27.11.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 52-ci məhəllə, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 27.11.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 11-ci məhəllə, səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 19.11.2025, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuz şəhəri, “Araz” kinoteatrının binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 14.11.2025, saat $11^{00}$, Şahbuz rayonu, Qızıl Qışlaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 27.11.2025, saat $16^{00}$, Babək rayonu, Vayxır Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 26.11.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69; 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 21.11.2025, saat $10^{00}$, Culfa rayonu, Camaldın Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 070-949-00-01<br>Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 27.11.2025, saat $11^{00}$, Culfa rayonu, Əbrəqunus Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 05.11.2025, saat $14^{00}$, Culfa rayonu, Qazançı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 13.11.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>27.11.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 06.11.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>20.11.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>28.11.2025, saat $15^{00}$, Ordubad rayonu, Yuxarı Əylis Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 04.11.2025, saat $16^{00}$, Ordubad rayonu, Pəzməri Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 04.11.2025, saat $16^{00}$, Ordubad rayonu, Dəstə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 18.11.2025, saat $12^{00}$, Ordubad rayonu, Azadkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

# Zəfər yolu

## Ömrü əbədi olan igidlər

Vətən müharibəsi şəhidləri – İsmayılzadə Məhəmmədin, Vüsal Tahirovun məzarı qarşısında dayanmışam. Baxıram onların gənc üzünə, gülən gözlərinə, sanki dil açır məzar daşındakı rəsimlər, danışır öz döyüş yollarından. Necə qələbə qazandıqlarından.

***Vüsal Tahirov:***

1997-ci il mayın 1-də Şərur rayonunun Danyeri kəndində anadan olmuşam. Sonradan Bakıya köçməli olduq. 2004-2015-ci illərdə Xırdalan şəhərində 9 nömrəli tam orta



məktədə təhsil aldım. Sonra Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə oldum. Çox sevdim Vətəni qorumağı ona görə də orduda qalmağa qərar verdim.

Azərbaycan Ordusunun giziri olmaq şərəfi ilə bir neçə il xidmət etdim. Əyninə forma geyən hər kəs kimi mənim də ən böyük arzum Vətənin bütövlüyü idi. Arzumuza çatacağımız gün, 2020-ci il sentyabrın 27-də günəş də sevinə-sevinə doğulmuşdu səmada. Sevgim Vətən oldu, ömrüm əbədi. "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildim. Başım üstə dalğalanan bayraq mənim bəy paltarım, azad olan torpaqlarda doğulan körpələr davam edən həyatımdır.

***İsmayılzadə Məhəmməd:***

1996-cı il iyunun 10-da Şərur rayonunun Yengicə kəndində, Birinci Qarabağ müharibəsi qazisi Füzuli kişinin ailəsində dünyaya göz açmışam. 1997-ci ildə ailəmiz Bakıya köçüb. 2014-cü ildə Suraxanı rayonu, 317 nömrəli məktəbi bitirdikdən sonra Naxçıvan şəhərində hərbi xidmət etdim. Ən böyük arzum xaricdə təhsil almaq idi və bu məqsədlə 2019-cu ildə Türkiyənin Kütahya Dumlupınar Universitetinə qəbul olundum. Ailənin ikinci övladı və yeganə oğul payı idim mən. Dünyaya gəlişimlə anam Miranəyə sevinc gətirmişdim.



Tələbə olsam da, Vətən müharibəsi başladığı ilk gündən hərbi komissarlığa müraciət edib, könüllü cəbhəyə yazıldım. Sentyabrın 29-da cəbhəyə yola düşdüm Füzulidə kəşfiyyatçı kimi fəaliyyət göstərdim. Oktyabrın 25-də Füzuli rayonunda şəhidlik zirvəsinə ucaldım. "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilməyim və Füzulinin bugünkü büsatı ruhumu şad edir. Vətən yaşasın deyə bizlər canımızı fəda etməkdən çəkinmədik və bu gün ruhumuz sevinir ki, azad Vətən torpağından doğmalarımızın səsi gəlir.

✍ **Ramiyə ƏKBƏROVA**

## Ali zirvənin qəhrəman fədaisi

Vətən daim igid oğulları ilə var olub. Onlardan biridir qədim Naxçıvanın alınmaz Əlincəsi ilə dillərə dastan olan Culfa rayonunun igid oğlu Daşqın Rzalı.



Uşaqlıqdan qəlbi Vətən eşqi ilə döyünən Daşqın 1993-cü il may ayının 27-də Culfa rayonunun Yaycı kəndində dünyaya göz açmışdı. Hələ 8 yaşında ikən atasını itirən Daşqının elə o zamandan balaca çiyinlərinə yüklənmişdi dünyanın yükü. Anası Gültəkin xanımla bərabər çalışıb evinə çörək qazanan qəhrəman şəhidimiz hər zaman ailəsinə qarşı mehriban, qayğılı idi. O ağır günləri xatırlayan Gültəkin ana titrək səslə söyləyir: "Daşqın, onun əkizi Coşqun və qızımı min bir əziyyətlə böyütmüşəm. Onlar da mənimlə bərabər hər əzaba qatlanıblar. Daşqın isə hər dəfə "Ana, sənə elə günlər yaşadacağam ki, pis günləri unutduracağam", – deyirdi. O hər çətinlikdə mənə dəstək idi".

2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olan şəhidimiz xidmətini davam etdirərək 2017-ci ilin fevral ayından əvvəlcə Lənkəran şəhərində, daha sonra isə Xızıda yerləşən "N" hərbi hissədə Vətən borcunu yerinə yetirib.

44 günlük Vətən müharibəsində fəal iştirak edən şəhidimiz Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. 21 oktyabrda şəhidlik zirvəsinə ucaldığı xəbəri gəlir evlərinə.

Ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidimiz 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif edilib.

✍ **Türkanə ƏSƏDOVA**

## O, Vətənin Ümidi, pənahı oldu



Yolumuz qəhrəman Azərbaycan oğlunun adını daşıyan Babək şəhərinədir. Bu torpağın yetişdirdiyi qəhrəman oğullardan biri olan,Vətən savaşının 43-cü günü Şuşa uğrunda gedən döyüşlərdə şəhadətə yüksələn Ümid Novruzlunun ocağına üz tutmuşuq. Evə daxil oluruq. Hər tərəfi qəhrəmanın fotoları ilə bəzənmiş otaqda xatirələr dilə gəldi, hər sözün axırı da, əvvəli də Ümid idi.

Ümid 1992-ci ilin iyununda Babək rayonunda dünyaya göz açıb. Uşaqlıq illərindən Vətən sevgisi ilə böyüyüb. Atasının dediyinə görə, hələ məktəb illərində belə hər dəfə əsgər görəndə formasına baxıb heyran qalardı. "Uşaq idi, amma hərbi formaya qarşı xüsusi bir marağı vardı. Deyirdi ki, "Mən də böyüyəndə əsgər olacağam, Vətənimi qoruyacağam", – deyir Bahadur ata fəxrlə söhbətinə davam edir: "Ümid orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandı. Qaydalara, intizama riayət edən, məsuliyyətli biri kimi xidmətini başa vurdu. Lakin Vətən sevgisi onu bir daha hərbiyə çəkir. Tərxis olandan sonra gizirlik kurslarını da uğurla başa vurur və xidmətdə nümunəvi davranışı ilə seçilir. Komandirlərindən həmişə Fəxri fərmanlar, təşəkkürnamələr alırdı. Heç bir narazılıq eşitmədik. Əksinə, hamı deyirdi ki, Ümid nümunəvi bir gizirdir. 2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda Naxçıvandan Qarabağa üz tutan hərbçilər arasında Ümid də var idi. 24 oktyabrda Qarabağda şəhadət şərbəti içən 14 naxçıvanlı cəsur döyüşçünün ana yurdda torpağa tapşırıldığı gün o döyüşə yollandı. 25-i səhər tezdən zəng elədi, dedi ki, "Bir yerdən çıxırıq, başqa yerə gedirik". O danışıq bizim onunla son əlaqəmiz oldu. Biz onun şəhid xəbərini 12 noyabrda aldıq".

Noyabrın 7-si… Şuşa uğrunda gedən döyüşlər. Ümid döyüş zamanı bir dəfə yaralanır, amma geri çəkilmir, "Bu kiçik yaradı, mən döyüşə davam edəcəm", – deyir. Qızğın döyüş zamanı ikinci minamyot mərmisi onların yaxınlığa düşür. Ümid Bahadur oğlu Novruzlu ağır yaralanır və elə döyüş meydanında da şəhadət zirvəsinə yüksəlir.

Ümidin anası Kimya Novruzlu ilə danışmaq çətin idi. Ananın qürurlu üzünə, yollara dikilən gözlərində donan əbədi həsrətə baxır, sizin kimi qəhrəman oğullar böyüdən analar var olduqca bu Vətən də var olacaq deyir və onu diqqətlə dinləyib sətirlərə köçürürəm: "Mən balamı üç aydır, görmürdüm. Bakıda əməliyyatda idim. Elə hər gün soruşurdum ki, Ümiddən bir xəbər varmı? Deyirdilər, heç bir şey yoxdur. Sonra xəbər verdilər ki, ayın 24-ü Ümid gedib müharibəyə. Bu xəbəri eşidən kimi dərhal oğluma zəng vurdum. Səsini eşidəndə sanki dünya mənim oldu. O dedi ki, narahat olma, ana, heç nə olmaz, sağ gedib, salamat gələcəyəm. Qayıdanda da səni götürəcəyəm. Dua elədim hər gün hər kəs üçün. Vətən uğrunda döyüşən hər bir hərbçi üçün".

Şəhidin yoldaşı Gülay Novruzlu Ümiddən ona yadigar qalan iki balasını həyat yoldaşına olan sevgisi, sədaqəti ilə böyüdür, ona layiq övladlar kimi yetişdirir: "Yoldaşım Ümid haqqında günlərlə, saatlarla danışa bilərəm. Həqiqətən də, onun qəhrəmanlığı, mərdliyi, insanlığı haqqında nə qədər desəm azdır. O, iki uşaq atası, yaxşı ailə başçısı, qayğıkeş yoldaş və mehriban iş yoldaşı idi. 24 oktyabrda müharibəyə yollandı. Biz onunla son dəfə təyyarəyə minəndə danışdıq. O, heç bir şey demədi, sadəcə: "Mən sağ gedib, salamat qayıdacağam", – dedi. Onun igidliyi, qəhrəmanlığı unudulmadı, Vətən uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə müxtəlif medallar və ordenlərlə təltif edildi. "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və digər Fəxri fərmanlar onun qəhrəmanlıq yolunu tamamlayır. Ümid şəhadətə yüksələndən sonra biz Şuşaya səfər edib onun son nəfəsini verdiyi yerlərdə olduq. Övladlarım atasının son dəfə ayaq basdığı və azad etdiyi torpaqlarda addımlayanda duyduğum qürur qəlbimdəki ağrını az da olsa, yüngülləşdirdi. Övladlarımız Şuşada gəzib Cıdır düzünə çıxanda hiss etdim atalarının şad ruhunun başımız üstündə dolandığını".

Bu evdə indi onun səsi eşidilmir, amma ruhu yaşayır. Divardakı şəkillərdə, uşaqlarının baxışında, ailəsinin qürurunda.

✍ **Elnurə CƏFƏROVA**

## Müharibədə qazanılan qələbə bizim qürurumuzdur



Onunla Vətən müharibəsi qəhrəmanlarının şərəfinə, onların döyüş yoluna həsr edilmiş tədbirdə tanış oluram. O, Vətən müharibəsində canla-başla xidmət edib, ərazi bütövlüyümüzün təmin olunmasında şücaət göstərən, Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrində hərbi xidmətdə olmuş Nəriman Fərəclidir.

"Cəsur döyüşçü" , "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan Culfa rayon sakini, müharibə iştirakçısı Nəriman Fərəcli şəhid qardaşlarının, döyüş yoldaşlarının qəhrəmanlığından, mübarizliyindən danışdıqca mən də qeyd edirəm.

"Ordumuzun döyüş əzmi yüksək səviyyədə idi. Azərbaycan əsgəri mərd, dözümlü, qorxmaz, cəsur və vətənpərvərlik hissi ilə döyüşürdü. Bütün əsgərlərin gözündə sevinc, içində fərəh, dilində "Qarabağ Azərbaycandır!" şüarı var idi. Hamı sevinirdi ki, nəhayət, həsrətində olduğumuz əks-hücum başladı. Allahın izni ilə şəhidlərimizin qisasını alacaq, alnımızdakı qara ləkəni siləcək, Qarabağımızı əsl sahiblərinə qovuşduracağıq. Bu müharibənin başqa nəticəsi ola bilməzdi. Dövlət, ordu və xalq olaraq hər kəs zəfərə köklənmişdi və elə zəfər də bizimlə oldu".

Qəhrəmanımız elə ürəklə danışır ki, təsirlənməmək, qürurlanmamaq mümkün deyil. O, xalqımızın müharibə dövründə nümayiş etdirdiyi birlik və bərabərlikdən, həmrəylikdən, kiçikdən-böyüyə hər kəsin bir amal uğrunda səfərbər olub mübarizə aparmasından söz açır… Dediyi hər fikri, hər sözü sanki ruhən yaşayır: "Ali Baş Komandanımızın mahir sərkərdəliyi ilə qəlbimizdə qurulan Azərbaycan eşqi idi bizə haqq yolunu göstərən. Bunun nəticəsi idi ki, bayraq sevgisi, torpaq məhəbbəti ilə silahlanan igidlərimiz Qarabağ savaşından alnıaçıq, üzüağ çıxdılar. Vətənin dar günündə onun köməyinə yetişən minlərlə ərənimiz qanları ilə tarix yazdı, onlar həm də adlarını zəfər tariximizə həkk etdirdilər. Çətindir həmin günlərə qayıtmaq, hər anı yada salmaq. Amma bu gün söylədiklərimiz bizdən sonrakı nəsillər üçün bir örnək, qürur olacaq. Gələcək Poladlar, Mübarizlər, Çingizlər, Salatınlar da məhz bu həqiqətləri eşidən, bilən Vətən övladlarının ocağında yetişəcək. Vətənimiz, Azərbaycanımız igid oğullar, qızlar qazanacaq".

Yadınızdadırsa, əks-hücum əməliyyatı ilə başladı mübarizəyə Azərbaycan Ordusu. Nəticədə, elə bütün dünyanın da bildiyi kimi, Azərbaycan Respublikasının təntənəli zəfəri ilə başa çatdı. Nəriman Fərəclinin söylədiyi kimi: "Vətən müharibəsi Ali Baş Komandanımız cənab İlham Əliyevin 20 il ərzində necə qüdrətli ordu yaratdığını göstərdi. Həmin ordu illərlə Qarabağda möhkəmlənən mənfur düşməni cəmi 44 günə qarşısında diz çökdürdü, kapitulyasiya aktına imza atdırdı. Bu həm də qalib sərkərdə qətiyyətinin təcəssümü, illərlə yürüdülən müstəqil siyasətin təntənəsi idi. İstərdim, fürsətdən istifadə edib sizə uşaqlıq xatirələrimdən də danışım. Mən də orta məktəbdə oxuyanda artıq qərar vermişdim ki, mütləq hərbçi olacağam. 2010-cu ildə hərbi xidmətə yollanmışam, 2014-cü ildə daxili qoşunlarda "Kobra" xüsusi təyinatlı dəstəsində xidmət etmişəm. Müxtəlif illərdə Naxçıvanda, Türkiyədə bir çox təlimlərdə iştirak etdim. Daim hazırlıq keçdik, istənilən döyüş tapşırıqlarını yerinə yetirmək üçün çalışdıq. Müharibə zamanı Murovdağ istiqamətində Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa istiqamətində döyüşmüşəm. İkinci qrup Qarabağ müharibəsi qazisiyəm. Nəhayət ki, arzumuza çatdıq. Torpaqlarımızı işğaldan azad etdik. Bu döyüşlərdə düşmən Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olduğunu gördü. Ali Baş Komandanımız hər kəsi vahid amal ətrafında səfərbər etdi və nəticədə, "dəmir yumruq" əməliyyatı ilə düşmənin başı əzildi. Ali Baş Komandanımızın da söylədiyi kimi, bu, bizim haqq savaşımız idi və biz öz torpaqlarımız uğrunda döyüşürdük. Şükürlər olsun ki, bu mübarizədən Azərbaycan Ordusu qalib çıxdı. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Bu söhbətləri dinlədikcə bir daha aydın olur ki, Azərbaycan xalqı bütün ümummilli məsələlərdə birlik nümayiş etdirməyi bacarır. Birliyin, bərabərliyin, mübarizliyin daim olsun, əziz Azərbaycan xalqı. Sən hər zaman qalibsən!

**"Şərq qapısı"**

# Zəfər tarixi



# Əsrin Qələbəsi

## Azərbaycan xalqı dünyaya tarixi Zəfərin qüruru ilə baxır

Azərbaycan qazandığı tarixi Zəfərlə dünyanın diqqət mərkəzindədir. XXI əsrin hələ ki ilk və tək ədalətli müharibəsini aparan və bununla da, konstitusion quruluşunu, suverenliyini təmin edən xalq və dövlət olaraq qürurluyuq, millilik duyğusundan, Böyük Qələbəmizdən gözlərimiz yaşarır. Tarix qarşısındakı borcumuzu yerinə yetirmişik, gələcək nəsillərə bütöv, üçrəngli göylər gözəlinin – Azərbaycan Bayrağının dalğalandığı suveren bir diyar ərməğan qoymuşuq. Artıq Azərbaycan xalqı 5-ci ildir ki, dünyaya tarixi Zəfərin qüruru ilə baxır. Elə dünya da minlərlə Vətən oğlunun qanı və igidliyi bahasına Qarabağa qayıdan, 30 il doğma od-ocağa dönmək üçün cəfa çəksə də, bu yoldan dönməyən, Şuşa aşiqi, Xankəndi sevdalısı kimi baxır bizə.

Hər bir dini etiqadın özünə görə müqəddəs bilinən kitabı, inandığı dəyərləri vardır. Azərbaycan xalqından ötrü müqəddəslik rəmzlərindən biri də Böyük Zəfərdir. Çünki biz bu tarixi Qələbənin komponentlərində həm də şəhidliyi yaşadırıq. Şəhidlik bizim üçün həm də şahidlikdir. Vətəni son damla qanına qədər sevməyə şahidlik etməkdir. Şəhidlik həm də şəhanə igidlik etmək, bütün yolların Qarabağa aparması deməkdir bizim üçün. Ona görə də əsrin Qələbəsi deyirik bu Zəfərə. Tayı-bərabəri, bənzəri yoxdur bu tarixin... XXI əsrdə ədalətli müharibə aparıb Xocalının, Ağdaban faciəsinin, tunel qətliamının – sırf türk olduğuna, damarlarında azərbaycanlı qanı daşıdığına görə qətlə yetirilən yüzlərlə günahsız körpənin, ahılın, qız-gəlinin qisasını düşməndən alan, doğma od-ocağından yağının ayağını birdəfəlik kəsən, işğalçıların arzu və xəyallarını torpağa basdıran, Böyük Qayıdışla yurdunu qurub-yaradan, cənnətə çevirən, illərlə torpaq həsrəti ilə burnunun ucu göynəyən insanları ev-eşiyinə qovuşduran nə qədər Lider var ki?!

Bu, ritorik sualdır, cavab tələb olunmur. Qarabağda tarix yazan, beləliklə, adını tarixə yazdıran bir Lider varsa, O da cənab İlham Əliyevdir. O səngərdəki əsgərin Ali Baş Komandanı, müasir Azərbaycan tarixinin Qalib Sərkərdəsi, siyasi arenada isə xalqımızı ən yaxşı formada təmsil edən Müzəffər Prezidentdir. Deməli, tarix Azərbaycandır, tarix cənab İlham Əliyevdir, tarix Azərbaycan xalqıdır. Bir vaxtlar arzu etdiyimiz "Ermənistan törətdiyi qanlı əməllərə görə tarix qarşısında cavab verəcək!" nidasının mütləq həqiqətə çevrildiyi günləri yaşayırıq. Bakıda əsrin məhkəməsi qurulub. Bir vaxtlar Qarabağda oturub özünü "prezident", "parlament sədri" və "nazir" kimi təqdim edən canilər, siyasi şizofrenlər bu gün Azərbaycan qanunları qarşısında cavab verirlər. Bu, gördüyümüz Azərbaycan Prezidentinin gözlərimiz önündə yazdığı, gələcək nəsillərə qürurla danışacağımız tarixin bir parçasıdır. Deməli, yaşından, cəmiyyətdəki mövqeyindən, statusundan asılı olmayaraq, damağında böyük zəfərin dadı olan, bu günlərə şahidlik edən hər bir azərbaycanlı həm də tarixi şəxsiyyətdir.

Demək olar ki, hər gün keçmiş köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qayıtması, məskunlaşması ilə bağlı rəsmi mənbələrdən məlumatlar alırıq. Sözü və imzası bir olan cənab İlham Əliyev işğaldan azad etdiyi Qarabağı kəndbəkənd, məhəllə-məhəllə qurub-yaradır. Görün, təkcə "Konstitusiya və Suverenlik İli"ndə Qalib Lider neçə kəndin, qəsəbənin, şəhərin yenidən qurulmasında, Böyük Qayıdışın reallaşmasında iştirak edib. Xəyallar gerçəyə, arzular həqiqətə dönüb. Tarixi anlara, tarixi kadrlara şahidlik edirik. Şuşanın, Xankəndinin, Xocalının yenidən dirçəlməsini, Zəngilanın "Ağıllı Ağalı"sını, Kəlbəcərdə keçirilən "Bal" festivalını görən gözlər nə xoşbəxtdir, İlahi!.. Tələbə şəhərciyinə dönüb Xankəndi, mötəbər xarici qonaqları, dünya liderlərini qarşılayır bizim Şuşa. Füzulidən, Zəngilandan keçməklə Naxçıvana yol açmaq planları üzərində işləyirik. Ruhun şaddır, Pənahəli xan, gözün aydın olsun, xan qızı Natəvan. İndi Qarabağa Zəfər dadında ucalıq, böyüklük gətirmişik. Böyük Qayıdışla ulu yurda dönənlər dövlətin onlar üçün qurub yaratdığı doğma od-ocaqda cənab İlham Əliyevlə şipşirin, bal dadında dialoq qururlar. Bundan böyük xoşbəxtlik, bundan böyük qürur varmı Allah?!

2025-ci ildə – "Konstitusiya və Suverenlik İli"ndə Böyük Qələbənin beşilliyini qeyd edirik. Deyirəm, alqış sənə olsun beşyaşlı böyük, beşyaşlı qürur – tarixi zəfərimiz, səndən bəhs edirəm! Duyursan, dünya səndən, səni ərsəyə gətirən xalq, ordu və Liderin gücündən, birliyindən, siyasi iradə və qətiyyətindən, cəmi beş yaşında necə tarixə dönməyindən danışır. Əmin ol ki, bundan sonra da səni hamıdan çox oxşayıb, əzizləyəcəyik. Qəti və birmənalı olaraq sənə adi gözlə baxa bilmərik. Çünki zəfər adlı tarixi reallıqda şəhidlərimizin müqəddəs qanı, müzəffər xalq və liderin həmrəyliyi, əzm və siyasi qətiyyəti yaşayır. Övladlarımıza, nəvə-nəticələrimizə hələ səndən çox bəhs edəcəyik, qürur mənbəyimiz – böyük qələbəmiz! Gün o gün olsun ki, yaşının üstünə neçə-neçə beşlər gəlsin, qərinələrə, əsrlərə dönəsən!

Suveren Azərbaycan naminə canından keçən Vətən sevdalı oğullar, hər zaman olduğu kimi, tarixi zəfərin 5 illik yubileyində də sizin müqəddəs ruhunuz qarşısında baş əyirik. Siz Müzəffər Liderin dəmir yumruğutək əzəmətli, yenilməz oldunuz. Əfsanəvi igidliyiniz bir ömür boyu bu böyük xalqın yaddaşında dastanlaşacaq. İndi siz milyonların övladısınız. Adınız gələndə gözlərimiz qürurdan yaşarır, rəşadətinizlə öyünürük. And içirik ki, canınızı qurban verdiyiniz müqəddəs Vətən torpağını göz bəbəyi kimi qoruyacaq, indiki kimi qurub yaradacaq, ona kəm gözlə baxmaq niyyətində olanların gözünü oyacağıq. Suverenliyin, 86.6 min kvadratkilometrlik müqəddəs torpağın bütövlüyünün qədrini hər şeydən çox biləcəyik.

Gözün aydın, milyonların doğması, öz övladı – şəhid, bu böyük xalqa Zəfər dolu günlərin şirinliyini, xoşbəxtliyini halal edin deyirik!

**Muxtar RZAZADƏ**



## Əbədiyyətə səs salan Zəfər nəğməsi

O gün dağlar da nəfəs alırdı. Külək sanki illərin həsrətini sinəsinə çəkib, azadlıq qoxusunu dağlardan düzənlərə, şəhərlərdən qəlblərə daşıyırdı. Torpaq sükutla danışırdı, amma gurultulu bir səssizliklə. Hər qarışında şəhid qanının, anaların göz yaşının, igidlərin andının izi vardı. O səhər günəş başqa doğdu.

Qarabağın üstündə illərlə duman kimi gəzən qəm həmin gün yerini işığa verdi. Sanki göy üzünün özü səcdəyə durdu, "Zəfər" adında bir dua oxundu bu torpağın üzərində. Hər çiçək, hər ağac, hər daş o duanı təkrarlayırdı. Bir əsgər səngərdə dayanmışdı, çiynində silah, qəlbində Vətən. Bəlkə də, gecələr ulduzlara baxıb fikirləşirdi: "Bəlkə, anam indi o ulduza baxır, bəlkə, mənim üçün dua edir".

O, igidlər döyüşə sevgisiz getməmişdi, onun silahı sevgi idi, mərdliyi inam idi. Sevginin ən uca forması olan Vətən sevgisi ilə... Hər addımda bir yurdun nəfəsi, hər güllə, bir əsrin cavabı idi. Zəfər müharibəsi zamanı bütün analar səhəri dua ilə açır, əllərini səmaya qaldırıb oğlunu sağ, Vətəni isə bütöv görməyi arzulayırdı. Küləklər, bəlkə də, onların göz yaşlarını səngərdəki əsgərin alnına toxundururdu, görünməz bir sevgi kimi.

Həmin gün küləklər bayrağın rənglərini daşıdı. Üçrəngli bayrağın kölgəsi dağlara, dərələrə, şəhərlərə yayıldı. O bayraq minlərlə qəlbin döyüntüsü idi. O bayraq, şəhidlərin ruhu, anaların duası, bir xalqın təntənəsi idi.

Həmin Zəfərin unudulmaz səsi ilə Qarabağ yenidən doğuldu. Şuşa yenidən səsləndi. Sanki Xan Şuşinskinin avazı, xan qızı Natəvanın qələmi yenidən dil açıb danışır, tar-kamanın simləri də azadlığın nəğməsini çalırdı. Daşlar danışır, çinarlar baş əyirdi. Hər yerdə həyat yenidən nəfəs alırdı. Körpə uşaqlar "Şuşa" adını qürurla söyləyirdi, sanki qədim bir nağıldan danışırdılar. O nağılın qəhrəmanları isə bu torpağın oğulları idi, canını Vətənə hədiyyə etmiş, adını tarixə yazmış igidlər. İndi Zəfər Günü bir bayramdan daha artığıdır. O, bir millətin dirçəlişinin, bir sevginin yenidən doğuluşunun günüdür.

Külək hər dəfə dağların zirvəsində əsəndə o pıçıldayır. Mən o səngərin yanından keçmiş, o əsgərin nəfəsini duymuş və bu torpağın sevgisinə şahid olmuşam. Və hər dəfə bir uşaq məktəbdə Zəfər haqqında inşa yazanda, o təkcə azad bir ölkənin deyil, bir sevdanın dastanını yazır. Çünki bu zəfər sevginin, birliyin, mərdliyin və ümidin zəfəridir. Bu zəfər bəzən bir xalqın "Mən varam" deyə hayqırdığı, minillik yaddaşına yazdığı bir möcüzədir.

Qarabağ torpağı indi bir simfoniya kimi hərdən soyuq, hərdən isti meh ilə dil açıb danışır, hər daşı, hər ağacı, hər axan suyu ilə "Zəfər" nəğməsini oxuyur. Əbədiyyətə səs salan ömürlük bir nəğmə ilə...

**Rafiq TƏHMƏZ**

# Saleh Baxşiyev: Naxçıvanın təbiəti öz təbii gözəlliyi və zənginliyi ilə məni valeh edir




*"Explore Azerbaijan with IDEA" layihəsi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayıb. Layihənin əsas məqsədi Azərbaycanın canlı aləminin təkrarolunmaz gözəlliklərini yerli və beynəlxalq auditoriyaya tanıtmaq, eyni zamanda ölkəmizin təbiətinin özünəməxsus zənginliyini əks etdirən multimedia bazasını yaratmaqdan ibarətdir. Layihə çərçivəsində fotoqraf və videoqraf Saleh Baxşiyev Naxçıvanın zəngin flora və faunasının incəliklərini kəşf edərək onları kameranın yaddaşına köçürür. Biz də "Şərq qapısı" qəzeti olaraq Saleh Baxşiyevlə görüşüb həmsöhbət olduq.*











O bildirdi ki, təbiətə sevgisi hələ məktəb illərindən yaranıb: "Təbiətə sevgim coğrafiyaya olan maraqdan başlayıb. Coğrafiya fənnini öyrənərkən heyvanlar aləmi, füsunkar təbiətimiz məni valeh edirdi. Düzünü desəm, haradan başladığını demək çətindir, amma uşaq yaşlarımdan təbiətə, sənədli filmlərə marağım böyük olub. Dünyada bu sahə ilə məşğul olan peşəkarları izləyirdim və düşünürdüm ki, bəlkə, bir gün mənim də belə imkanım olar. Və bir də baxdım ki, artıq bu işin içindəyəm. Bir neçə ildir ki, mən könüllü olaraq ölkəmizin təbiətinin gözəlliklərini lentə alıram və bu işi həmişə zövqlə görmüşəm. Bir gün öz sosial media səhifəmdə Zəngəzur Milli Parkından bəbirlərlə bağlı bir foto paylaşmışdım. Həmin şəkli Leyla xanım təsadüfən görmüşdü və bu foto onun çox xoşuna gəlmişdi. Bunun ardınca, IDEA İctimai Birliyi məni görüşə dəvət etdi. Bir müddət sonra IDEA İctimai Birliyi tərəfindən mənə təklif olundu ki, Azərbaycanın canlı aləminin zənginliyini yerli və beynəlxalq müstəvidə tanıtmaq, eyni zamanda multimedia bazasını yaratmaq üçün birgə layihəyə başlayaq. Əlbəttə ki, bu olduqca gözəl fikir idi və mən bu təklifi böyük məmnuniyyətlə qəbul etdim. Beləliklə, bir neçə ay sonra "Explore Azerbaijan with IDEA" layihəsi ərsəyə gəldi. Bu hekayə karyeramın ən sevindirici və qürurverici anı kimi yaddaşımda qalacaq. Fürsətdən istifadə edərək bu layihə barədə təşəbbüslə çıxış edən Leyla xanıma mənə göstərilən böyük etimada görə dərin minnətdarlığımı bildirirəm.

Leyla xanımın təbiətə, ekologiyaya olan sevgisi hər birimizə məlumdur. O bu sahədə çalışan insanların əməyini həm yerli, həm də qlobal müstəvidə daim dəstəkləyir, ətraf mühitin qorunması üçün böyük səylər göstərir".

Naxçıvana səfəri ilə bağlı danışan müsahibimiz qeyd etdi ki, "Explore Azerbaijan with IDEA" layihəsi çərçivəsində bir neçə gündür ki, burada çəkilişlər həyata keçirir. Əlavə edir: "Naxçıvanın təbiəti füsunkar gözəlliyə malikdir. Burada yarımsəhra ərazilər çox olsa da, səhrası da, dağı da, dənizi də olan Azərbaycanın hər bucağı kimi bu torpaq da özünəməxsus gözəlliyə sahibdir. Xüsusilə florası və faunası çox zəngindir. Hər dəfə bura gələndə elə bil, insan ayrılmaq istəmir. Elə bir an olmayıb ki, vaxtımı boş keçirim. Qısa, iki-üç həftəlik səfərlər mənim üçün kifayət etmir, sanki buradan doymaq olmur. Amma ən yaddaqalan an o olub ki, illərlə axtardığım bəbirə məhz Naxçıvanda rast gəlmişdim. Onu saatlarla izləmək, səsini eşitmək, görüntüsünü çəkmək mənim üçün inanılmaz bir hiss idi. Mən ekstremal şəraitdə sağ qalmaq bacarıqlarını təkmilləşdirirəm, öz üzərimdə eksperimentlər apararam. Vəhşi təbiət fotoqrafiyası ilə məşğul olduğum üçün çətinlik çəkmirəm. Hansı heyvanın nə qədər məsafədən müşahidə edilməli olduğunu, hansı dərəcədə yaxınlaşmaq lazım gəldiyini bilirəm. Çünki heç bir canlı səbəbsiz yerə insana hücum etmir. Əgər biz onun üçün təhdid yaratmırıqsa, o da bizə zərər vermir. Hətta ilanlarla bağlı paylaşımlarımda da qeyd etmişəm ki, onlar yalnız özlərini müdafiə etmək üçün hücum edirlər. Sadəcə, davranış qaydalarını bilmək kifayətdir".

Saleh Baxşiyev üçün ən uğurlu kadr hədəfə alınmış bir tapşırığın yerinə yetirilməsidir: "Məsələn, bəbir mənim əsas hədəflərimdən biri idi. Bilirdim ki, bir gün onu görəcəyəm. Sadəcə, bu qədər yaxın məsafədən müşahidə edib səsini eşidəcəyimi təsəvvür etmirdim. Bu mənim üçün unudulmaz bir an idi". O həmçinin qeyd edir ki, Naxçıvanda təbiətin mühafizəsi çox düzgün şəkildə təşkil olunub: "Buraya gəlməzdən əvvəl düşünürdülər ki, sadəcə, kameranı götürüb axtarıram, tapıram. Amma belə deyil. Mən hər zaman müvafiq xidmətlərlə əlaqə saxlayıram, onlarla məsləhətləşirəm. Bu işdə mənə düzgün istiqamət göstərdiklərinə görə Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə dərin təşəkkürümü bildirirəm. Eləcə də Zəngəzur Milli Parkının rəhbərliyinə, həmçinin elmi işçi Samir müəllimə minnətdaram. Onunla görüşlər və müzakirələrdən sonra elə ərazilər seçdik ki, oradan əliboş qayıtmadım. Bu da onu göstərir ki, burada xidmət düzgün və peşəkar şəkildə qurulub. Samir müəllim mütəmadi olaraq ərazilərdə olur, heyvanların sayım və müşahidə işlərini aparır. Mən buradaykən belə o daim ərazidə idi.

Sonda müsahibimiz əlavə edir: "Çalışıram ki, çəkdiyim kadrlarla Naxçıvan təbiətinin qorunduğunu bütün Azərbaycana və dünyaya göstərə bilim. Azərbaycan təbiəti çox zəngindir. Əgər biz bu qayğını birgə davam etdirsək, yaxın gələcəkdə istənilən canlı növünü yaxın məsafədən müşahidə edə biləcəyik. Mən dağ keçilərini beş metrdən görəndə heyrətə gəlmişdim. Gördüm ki, bu yalnız xarici ölkələrdə deyil, elə öz vətənimizdə də mümkündür. Mənim üçün isə Naxçıvan dağlarının əzəməti, mehriban insanları və nadir təbiəti ilə Azərbaycanın ən zəngin və təbiiliyini qorumuş bölgəsidir.

IDEA İctimai Birliyi ilə "Explore Azerbaijan with IDEA" komandası olaraq əlimizdən gələni edəcəyik ki, Azərbaycanın təkrarolunmaz flora və faunasının ən geniş auditoriyaya tanıdaq, onun qorunmasına və daha da gözəlləşməsinə töhfə verək".

Qeyd edək ki, sosial media istifadəçiləri fotovideoqraf Saleh Baxşiyevin peşəkar obyektivi ilə Azərbaycanın flora və faunasının incəliklərini kəşf edərək ölkəmizin füsunkar təbiətinə daha yaxın ola biləcəklər.

"Explore Azerbaijan with IDEA" təkcə maarifləndirici layihə deyil, eyni zamanda təbiətimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün bir çağırışdır.

**Bülbül RÖVŞƏNQIZI**

## Haçadağa qalxan gəncin görüntüləri izləyiciləri heyran etdi



Son günlər sosial şəbəkələrdə bir video xüsusilə maraq doğurub, Naxçıvanın əzəmətli Haçadağına doğru addımlayan bir gəncin görüntüləri minlərlə baxış və rəğbət toplayıb. Həmin gənc Şərafəddin Qafarov Babək rayonunun Nehrəm qəsəbəsində doğulub, uşaqlığını kəndin təbiəti ilə iç-içə keçirib. Biz də həmin gənclə görüşüb həmsöhbət olduq. Şərafəddinin sözlərinə görə, təbiətə, macəraya olan sevgisi onu illərlə uzaqdan seyr etdiyi Haçadağa qalxmaq arzusuna çatdırıb. Və bir gün o qərara gəlib ki, vaxtıdır, xəyalları gerçəyə çevirməyin zamanı yetişib: "Hər zaman Haçadağ mənə maraqlı gəlib. Düşünürdüm ki, nə vaxtsa, mütləq zirvəsinə çıxaram. Dostumu da götürüb bu dağın sehrini daha yaxından görmək və düz zirvəsinə qalxmaq üçün Naxçıvana ikigünlük səfər planladım. Dağa qalxmaq üçün ilk dayanacağımız məkan isə Culfa rayonunun Gal kəndi idi.

Uzaqdan baxanda bir başqa görkəm, yaxından isə tam fərqli əzəməti ilə insanı özünə valeh edən Haçadağ sanki səssiz-səmirsiz dayanıb səni zirvəyə çağırır. Onun möhtəşəm görünüşü insanda izaholunmaz bir həyəcan və cazibə yaradır. Nəhayət, zirvəyə çatanda gördüklərim sözlə ifadə ediləsi deyildi. Qarşımdakı mənzərə möhtəşəm idi. Həm əzəmətli, həm də inanılmaz dərəcədə gözəl. Uşaqlıqda xəyallarda gördüyüm mənzərə indi qarşımda dayanmışdı. Dağa qalxmaq mənim üçün həm fiziki, həm də ruhi bir sınaq oldu. Amma bu sınağın hər anı mənim üçün xüsusi idi. Hər kəsə tövsiyəm budur: əgər bir arzunuz varsa, onu gecikdirməyin. Haçadağa səyahətin hər anını, dağa doğru atdığım hər addımı, yaşadığım duyğuları görüntülərə köçürərək paylaşdım. Videom gözlədiyimdən də böyük maraqla qarşılandı. Hədəfim növbəti zirvələrdir".

Biz də bu maraqlı və ruhlandırıcı hekayənin müəllifi Şərafəddin Qafarova gələcək səfərlərində uğurlar arzulayırıq. Arzularının ardınca gedən, zirvələri fəth etməklə insanlara ruh verən belə gənclər cəmiyyətimiz üçün nümunədir.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir

**Dekan vəzifəsini tutmaq üçün**

1. Fizika-riyaziyyat fakültəsi
2. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi
3. İqtisadiyyat və idarəetmə fakültəsi
4. Tibb fakültəsi
5. Beynəlxalq münasibətlər və hüquq fakültəsi

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
2. İngilis dili və tərcümə kafedrası
3. Şərq dilləri kafedrası
4. Xalq çalğı alətləri kafedrası
5. Biologiya kafedrası
6. Klinik fənlər və hərbi tibb kafedrası
7. Stomatologiya kafedrası
8. Avropa dilləri kafedrası
9. Ümumi hüquq kafedrası
10. Dövlət və ictimai münasibətlər kafedrası

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

1. Ümumi və nəzəri fizika kafedrası – dosent – 1 yer
2. İnformatika kafedrası – müəllim – 1 yer
3. Ümumi riyaziyyat kafedrası – dosent – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer
4. İngilis dili və metodika kafedrası – dosent – 1 yer (0,5 ştat)
5. Texnologiya kafedrası – dosent – 1 yer
6. Çağrışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – professor – 1 yer, dosent – 1 yer, müəllim – 1 yer
7. Kimya kafedrası – dosent – 1 yer (0,5 ştat)
8. Təməl tibb fənləri kafedrası – müəllim – 1 yer
9. Əczaçılıq və biokimya kafedrası – dosent – 1 yer
10. Coğrafiya kafedrası – müəllim – 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

*Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi*
*Telefon: (036) 545-23-66/10-01*

### İtmişdir

Yusifova Leyla Seyfəddin qızının adına olan əsgərin AD-0039555 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini Seyidov Məhəmməd Kazım oğlunun adına olan 028586 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Quliyev Məmmədəli Kərim oğlunun adına verilmiş evin 226 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini Nəcəfov Zeynalabdın İlyas oğlunun adına olan JN-796[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Hüseynov Lətif Həsən oğlunun adına olan JN-033[A] nömrəli, 10308028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Payız kənd sakini Məhərrəmov Rəhim Fərrux oğlunun adına olan JN-64[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Abdullayev Qasım Seyfulla oğluna məxsus JN-401[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Camaldın kəndində Həsənov Teymur Əli oğlunun adına olan JN-298[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 9, ev 21-də Novruzov Elməddin Şakir oğlunun adına olan 104013000101-10301, 18687 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini İbrahimov Abbas Əbülfəz oğlunun adına verilmiş JN-133[A] nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 263

Nömrəyə məsul: Bülbül Quliyeva, Elnurə Cəfərova, Zəhra Vəliyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.